# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

21 noyabr 2025-ci il, cümə
№ 212 (7039)
Qiymәti 60 qəpik




Milli azadlıqdan şirin nemət yoxdur!

# Naxçıvandan Şuşayadək keçilən Böyük Yol



## 21 noyabr 1992-ci ildə Qələbələr Partiyası YAP-ın təsis konfransı keçirilib

Bax səh. 2

## Yeni Azərbaycan Partiyası: dövlətçilik yolunda 33 illik siyasi irs

Bax səh. 3

## Azərbaycan-ABŞ münasibətləri: davamlı, etimada söykənən, inkişafı hədəfləyən...

Bax səh. 4

## Mərkəzi Asiya-Xəzər enerji həmrəyliyi

Bax səh. 5

## Rəqəmsal bankçılıq üçün səmərəli platforma

Bax səh. 5

## Ümidlər Türkiyəyə yönəlir...

Bax səh. 6



## Qəzzadan sonra Ukraynada...

Bax səh. 7



## Avropa “hərbi Şengen”in bir addımlığında...

Bax səh. 7




# Naxçıvandan Şuşayadək keçilən Böyük Yol

## 21 noyabr 1992-ci ildə Qələbələr Partiyası YAP-ın təsis konfransı keçirilib

**Ölkəmizdə aparıcı siyasi qüvvə olan Yeni Azərbaycan Partiyasının (YAP) təsis konfransı tarixin bu günündə - 21 noyabr 1992-ci ildə keçirilib. YAP ötən 33 ildə daha da böyüyərək ölkənin bütün sosial təbəqələrini əhatə edən bir partiyaya çevrilib. Partiyanın sıralarının genişlənməsi - hazırda YAP-ın 730 mindən çox üzvü var - bunu əyani şəkildə təsdiqləyir. YAP ötən dövr ərzində ölkədə keçirilən bütün prezident, parlament və bələdiyyə seçkilərində inamlı qələbələr qazanıb. Bu baxımdan 2024-cü ildə müstəqillik tariximizdə ilk dəfə ölkənin bütün ərazisində keçirilən prezident, parlament və cari ilin yanvar ayında baş tutan son bələdiyyə seçkiləri də istisna olmayıb. Seçkilərdəki parlaq qələbələr YAP Sədri, Prezident İlham Əliyevin Ulu Öndərin siyasi kursunu inamla davam etdirməsinin, ölkənin, xalqın milli maraqlarını qətiyyətlə qorumasının, hər sahədə Azərbaycanınn uğurlar qazanmasını təmin etməsinin cəmiyyətdə böyük razılıqla qarşılanmasının əyani təsdiqidir. Azərbaycan xalqı ardıcıllıqla həyata keçirilən siyasi kursu dəstəkləyir və bundan sonra da dəstəkləyəcək. YAP partiyanın qurucusu Heydər Əliyevin arzuladığı kimi, Azərbaycanın dünəninin, bu gününün və gələcəyinin partiyasıdır. "Yeni Azərbaycan Partiyası nəinki Azərbaycanın, həm də Cənubi Qafqazın ən böyük siyasi partiyasıdır. Yeni Azərbaycan Partiyası bundan sonra da bütün ölkəmizdə gedən proseslərin mərkəzində olacaq" - deyə Prezident İlham Əliyev YAP-ın VII qurultayında söylədiyi nitqində vurğulayıb.**

### Tarixi zərurətdən yaranan partiya

Siyasi səhnədə çoxlu sayda partiyanın olması normal bir haldır. Ancaq ayrı-ayrı partiyaların necə yarandığını araşdırdıqda aydın şəkildə görünür ki, onların heç də hamısının siyasi fəaliyyət meydanına gəlməsinə sosial sifariş olmayıb. Bu qəbildən olan partiyaların rəhbərləri sırf ambisiyalardan, hakimiyyət hərisliyindən çıxış etməklə və yaxın ətraflarını bir yerə yığmaqla cəlbedici adlar altında təşkilatlar yaradıblar. Lakin onlar siyasi fəaliyyət meydanında hər zaman autsayderlər zolağında qalıblar.

YAP-ın timsalında isə biz daim xalqdan güc almaqla yeni-yeni uğur hekayələrinə imza atan möhtəşəm bir partiyanın dolğun fəaliyyətini izləyirik. Bu partiya Azərbaycanın müstəqilliyinin çox çətin sınaqdan keçdiyi bir dövrdə zərurətdən yaranıb. Həmin dövrə qısa ekskurs etsək, mənzərə barədə konkret təsəvvür yaranar. Bəli, iş elə gətirib ki, ötən əsrin doxsanıncı illərinin əvvəllərində XX yüzillikdə ikinci dəfə öz müstəqilliyini elan edən Azərbaycan həyatın bütün sahələrində böhran kimi səciyyələndirilən ağır çətinliklərlə üz-üzə qalıb. Dövlət idarəçiliyi iflic olmuşdu. İqtisadiyyat tamam çökmüşdü. Sosial sfera, əhalinin gün-güzəranı dözülməz dərəcədə ağır idi. Qeyri-legitim yolla 1992-ci ilin yazında hakimiyyətə gələn AXC - "Müsavat" iqtidarı cəmi bir il ərzində apardığı naşı siyasəti ilə ölkəni xaos, hərc-mərclik girdabına salmışdı. Ermənistanın işğalının genişlənməsi ilə yanaşı, həm də respublikada vətəndaş qarşıdurması təhlükəsi yaranmışdı. Müstəqilliyimizin itirilməsi tam real idi.

Vəziyyət sağlam qüvvələri, ziyalıları narahat edirdi. Onlar çıxış yolunu görkəmli siyasətçi Heydər Əliyevin Azərbaycanın siyasi rəhbərliyinə gəlməsində görürdülər. Beləliklə, 91 nəfər ziyalı siyasi fəaliyyət meydanına atılacaq Yeni Azərbaycan Partiyasına rəhbərlik etməyə razılıq verməsi üçün 1992-ci il oktyabrın 16-da o dövrdə Naxçıvanda yaşayıb çalışan Heydər Əliyevə müraciət etdi. Bu sənəd, əslində, bütün xalqın arzu və istəklərinin ifadəsi idi. Heydər Əliyev ziyalılara göndərdiyi 24 oktyabr 1992-ci il tarixli cavab məktubunda Yeni Azərbaycan Partiyasının yaradılmasına və ona rəhbərlik etməyə razılıq verdi. "Güman edirəm ki, müstəqil Azərbaycan dövlətinin gələcək həyatının və fəaliyyətinin əsasını təşkil edən demokratiya və siyasi plüralizm şəraitində Sizin müraciətinizdə göstərilən Yeni Azərbaycan Partiyasının yaradılması obyektiv zərurətdən doğur. Belə partiya Azərbaycanın siyasi-ictimai həyatında fəal iştirak edərək yeni, müstəqil Azərbaycan dövlətinin möhkəmləndirilməsində və inkişafında tarixi rol oynaya bilər" - deyə Heydər Əliyev ziyalıların tarixli müraciətinə cavabında vurğulayıb.

Yeni Azərbaycan Partiyasının təsis konfransı yuxarıda qeyd olunan tarixdə Naxçıvanda ölkəmizin bütün regionlarını təmsil edən və 550 nəfərdən ibarət olan təşəbbüs qrupunun iştirakı ilə keçirilib. Təsis konfransında Yeni Azərbaycan Partiyasının yaradılması haqqında qərar, partiyanın Nizamnaməsi və Proqramı qəbul edilib. Konfransda Heydər Əliyev yekdilliklə partiyanın Sədri seçilib.



### Cəmi 6 aydan sonra hakimiyyətə gələn partiya

Dünya təcrübəsindən də bəlli olduğu kimi, siyasi partiyalar bir qayda olaraq hakimiyyətə gəlmək naminə mübarizə aparırlar. Təbii ki, hakimiyyət uğrunda mübarizə heç də hər zaman uğurla nəticələnmir. Bu da həmin siyasi qüvvələrin iqtidara hansı məqsədlərlə gəlmək niyyətləri ilə bilavasitə bağlıdır. Xalqın gözü tərəzidir, deyiblər. Seçici özünü "lider" adlandıran bu və ya digər partiya funksionerinin fəaliyyəti ilə maraqlanır, onun keçmişini, bu gününü araşdırır və adekvat dəyərləndirməsini aparır. Çoxları da bu süzgəcdən keçə bilmirlər. Müqayisədə YAP-ın üstünlükləri əlçatmaz olub, bu gün də belədir və şübhə yoxdur ki, gələcəkdə də eyni vəziyyət izləniləcək.

21 noyabr 1992-ci ildə Naxçıvanda təsis konfransı keçirilən YAP dünya tarixində bir ilkə imza atıb. Belə ki, partiya yarandığı vaxtdan cəmi 6 ay sonra iqtidara gəlib. Bu qeyri-adilikdə bir adilik var idi. YAP-ın qısa müddətdə təşkilatlanması, yerlərdə yaradılan özək təşkilatları vasitəsilə genişlənməsi və hakim partiyaya çevrilməsi ilk növbədə xalqın partiyanın qururcusu Heydər Əliyevə böyük rəğbəti və inamı ilə şərtlənirdi. Heydər Əliyev bacarıqlı və milli ruhlu bir lider olduğunu hələ keçmiş sovet dönəmində Azərbaycana rəhbərlik etdiyi illərdə təsdiqləmişdi. O dövrdə Heydər Əliyev sovet rejiminin ideoloji qadağalarını məharətlə aşaraq milli mədəniyyətin, ədəbiyyatın inkişafına, Azərbaycan dilinin statusunun yüksəldilməsinə, azərbaycanlı gənclərin ittifaqın qabaqcıl ali məktəblərində nadir ixtisaslara yiyələnmələrinə böyük qayğı göstərirdi. Bütün bunlar, eyni zamanda, Heydər Əliyevin nümunəvi rəhbər obrazı xalqın özünəinam hissini gücləndirirdi. Deyə bilərik ki, o illərdə Heydər Əliyevin fəaliyyəti Azərbaycan xalqının oyanışına, milli dərkinə güclü təkan verdi. Böyük siyasətçinin səpdiyi toxumlar ötən əsrin səksəninci illərinin sonu - doxsanıncı illərinin əvvəlində şərait yarandıqda sağlam cücərtilər verdi. Bir neçə gün bundan əvvəl respublikamızda Milli Dirçəliş Günü qeyd olundu. 1988-ci il noyabrın 17-də xalq keçmiş ittifaq rəhbərliyinin Azərbaycana münasibətdə ədalətsiz siyasət aparmasına etiraz əlaməti olaraq indiki Azadlıq meydanında izdihamlı mitinqə toplaşdı. Dirçəliş Günü də həmin tarixi simvolizə edir. Azadlıq meydanında başlayan etiraz mitinqi sonradan müstəqillik uğrunda dönməz bir xalq hərəkatına çevrildi. Bunun ideya əsaslarını isə Heydər Əliyev qoymuşdu. Eyni zamanda, Heydər Əliyev YAP yaranmazdan öncə Naxçıvandakı fəaliyyəti ilə insanların azadlıq istəyini daha da gücləndirmişdi. Xatırlayaq ki, məhz Onun təşəbbüsü və cəsarəti sayəsində Naxçıvan keçmiş sovet bayrağından imtina etdi, muxtar respublikanın Ali Sovetində Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı qaldırıldı. Yenə də Heydər Əliyev böyük cəsarət nümayiş etdirməklə keçmiş ittifaqın bərpası ilə bağlı referendumun Naxçıvan ərazisində keçirilməsinə imkan vermədi. O dövrdə böyük siyasətçi daim Azərbaycanın müstəqilliyinin bəyan olunması təklifləri ilə çıxış edirdi.

Bütün bunlar Azərbaycan xalqının qəlbində Heydər Əliyevə sarsılmaz bir inam yaratmışdı. Buna görə də xalqına, Vətəninə bağlı olan belə bir parlaq şəxsiyyətin qurucusu olduğu partiyanın yarandığı vaxtdan cəmi 6 ay sonra hakimiyyət partiyasına çevrilməsinin alternativi yox idi.

AXC- "Müsavat" iqtidarının yarıtmaz siyasətindən cana doyan xalq artıq 1993-cü ilin yayında bir nəfər kimi YAP Sədri Heydər Əliyevin Azərbaycanın siyasi hakimiyyətinə qayıtmasını tələb edirdi. Başqası olsaydı, həmin xaotik vəziyyətdə həyatını və karyerasını təhlükəyə atmaqdan çəkinərək suların durulmasını gözləyərdi. Ancaq söhbət Heydər Əliyevdən gedirdi. Çətinliklərlə üzləşən xalqı Ona üz tutmuşdu, güvənmişdi. O, xalqın güvənini, inamını qırmağı Özünə rəva görə bilməzdi və bilmədi də. Bakıya gəlib respublikanın idarəçilik sükanının arxasına keçməyə razılıq verdi. Heydər Əliyev 1993-cü il iyunun 9-da Naxçıvandan Bakıya gəldi və iyunun 15-də Azərbaycan Respublikası Ali Sovetinin sədri seçildi. Bir qədər sonra isə O, Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı. Və nəhayət, 1993-cü il 3 oktyabr tarixində ölkədə keçirilən prezident seçkilərində inamlı qələbə qazandı. YAP Sədri, Prezident Heydər Əliyev 1993-cü il oktyabrın 10-da dövlətə və xalqa sədaqət andı içərək dövlət başçısı kimi fəaliyyətə başladı.

Heydər Əliyev bütün varlığı ilə andına sadiq qaldı. O, vaxt itirmədən Azərbaycanın sabahı, müstəqilliyimizin əbədiyaşarlığı üçün müstəsna önəm daşıyan böyük işlərin təməlini qoydu. Heydər Əliyev müstəqilliyimizi qorumaqla, ölkəni sabitliyə və inkişafa istiqamətləndirməklə böyük tarixi missiya yerinə yetirmiş oldu.

### Azərbaycan zirvələrdən-zirvələrə yüksəlir

Azərbaycanın böyük xoşbəxtliyidir ki, ölkəmizdə Heydər Əliyev siyasi kursunun varisliyi yüksək səviyyədə təmin edilir. Xalqımız 2003-cü ildə Heydər Əliyev kursunun layiqli davamçısı İlham Əliyevi ölkə Prezidenti seçib. Azərbaycanın idarəçilik sükanının arxasına keçən İlham Əliyev andiçmə mərasimində söylədiyi nitqində Heydər Əliyev siyasi xəttinə sadiq qalacağına vəd verdi və ötən dövrdə biz bu vədin tam həyata keçirildiyinin şahidi olmuşuq.



YAP 2005-ci ildən İlham Əliyevin liderliyi ilə fəaliyyət göstərir. Partiyanın 2005-ci il 26 mart tarixində keçirilmiş III qurultayında YAP-ın yeni Sədri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev seçilib. Siyasi kursun varisliyinin təmin edilməsinin nəticəsidir ki, ölkəmiz hədəflərinə doğru inamlı addımlar atır və zirvələrdən-zirvələrə yüksəlir. Dayanıqlı inkişafın təmin olunması Prezident İlham Əliyevin dövlət siyasətinin mütləq prioritetidir. Ölkə boyunca yaradılan müasir infrastruktur Azərbaycanın mənzərəsini dəyişib. Bu infrastruktur obyektləri həm iqtisadi inkişafa güclü təkan verir, həm də əhalinin həyat səviyyəsinin yüksəlməsində mühüm rol oynayır. İqtisadi müstəqilliyin tam təmin olunması ölkəmizin böyük uğurudur. Qürurverici haldır ki, bu gün Azərbaycan öz problemlərini özü həll edən güclü bir dövlət səviyyəsinə yüksəlib. Eyni zamanda, iqtisadi müstəqillik zəminində siyasi müstəqilliyimiz təmin olunub. Bu gün Azərbaycan sırf milli maraqlara və suverenlik prinsiplərinə əsaslanan siyasət həyata keçirir. Ölkəmiz hansısa bir güc mərkəzindən asılı olmadan mühüm qərarlar verir və bu qərarlar məhz paytaxt Bakıda Prezident İlham Əliyev tərəfindən imzalanır. Bizimlə diktat dili ilə danışmırlar və danışa da bilməzlər.

Bu gün regionda reallaşdırılan bütün beynəlxalq, irimiqyaslı layihələr Azərbaycanın iştirakı və milli maraqlarının nəzərə alınması ilə həyata keçirilir. Paralel şəkildə, dünyada Azərbaycan söz sahibi kimi qəbul olunur. Lider həmçinin mənəvi birliyi təmin edən, cəmiyyətdə müəyyən əhval-ruhiyyənin, ideya və dəyərlər sisteminin formalaşmasına təsir göstərən mühüm qüvvədir. Prezident İlham Əliyevin bu keyfiyyətlərinin sayəsində ölkəmizdə uzunmüddətli siyasi sabitlik və həmrəylik mühiti təmin olunub və gələcək inkişaf üçün fundamental zəmin formalaşıb.

### Noyabr - zəfər ayı

Son 22 ildə müstəqil Azərbaycanın ən böyük uğuru isə, heç şübhəsiz ki, 44 günlük Vətən müharibəsində və 23 saatlıq lokal xarakterli antiterror əməliyyatında qazanılan parlaq qələbələrdir. YAP-ın qurucusu olan Heydər Əliyevin ən böyük arzusu ölkəmizin ərazi bütövlüyünün və suverenliyinin təmin olunması idi. Ulu Öndər özünəməxsus böyük bir inamla xalqımızın Şuşaya, Kəlbəcərə, Laçına və digər tarixi torpaqlarımıza qayıdacağına əminliyini bildirdi. Bu inamı Onun siyasi varisi İlham Əliyev doğrultdu. Azərbaycan xalqının mental dəyərlər sistemində oğul ata vəsiyyətini mütləq qaydada yerinə yetirməlidir. Prezident İlham Əliyev Özünün də bildirdiyi kimi, xoşbəxt oğuldur ki, əziz Şuşanı azadlığına qovuşdurmaqla ata vəsiyyətini yerinə yetirmiş oldu.

Yeni Azərbaycan Partiyası noyabr ayında siyasi fəaliyyət meydanına gəlib. Noyabr ayı həmçinin zəfər ayıdır. 2020-ci il noyabrın 8-də Şuşa igid hərbiçilərimizin misilsiz şücaətləri sayəsində yağı düşməndən təmizlənərək öz istəklilərinə qovuşdu. Şuşanın azad olunmasından sonra düşmən məğlubiyyəti ilə barışmaq məcburiyyətində qaldı. Noyabrın 10-da Ermənistanın kapitulyasiyasını, Azərbaycanın böyük Qələbəsini rəsmiləşdirən üçtərəfli bəyanat imzalandı və beləliklə də respublikamızın ərazi bütövlüyü hərbi-siyasi yolla təmin olundu. Bununla da Yeni Azərbaycan Partiyasının 1991-ci ilin noyabrında Naxçıvandan başlayan yolu 2020-ci ilin noyabrında Azərbaycan xalqının mədəniyyət beşiyi sayılan Şuşaya uzandı...

### VII qurultay: Yeni dövrə yeni hədəflərlə

2021-ci il 5 mart tarixində YAP-ın VII qurultayı keçirilib. Həmin qurultayda aparılan müzakirələrə və alınan qərarlara, müəyyənləşdirilən hədəflərə əsaslanaraq YAP-ın keyfiyyətcə yeni bir inkişaf mərhələsinə yüksəldiyini deyə bilərik. Qurultayda qəbul edilmiş qərar əsasında Yeni Azərbaycan Partiyasının yeni Nizamnaməsi, 40 nəfər tərkibdə İdarə Heyəti, 13 nəfərdən ibarət Təftiş Komissiyası və yeni qurum olaraq YAP-ın Veteranlar Şurasının 35 nəfərlik tərkibi təsdiq edilib. Yeni Nizamnaməyə uyğun olaraq, partiyanın Sədri İlham Əliyevin müvafiq sərəncamı ilə 2021-ci il 5 mart tarixində Mehriban xanım Əliyeva partiya Sədrinin birinci müavini təyin edilib. Sözügedən təyinat yüksək etimadın və Azərbaycanın dövlət siyasətində qadına ayrılan xüsusi diqqətin təcəssümüdür. Mehriban xanım Əliyevanın timsalında Azərbaycan qadınının fəal ictimai-siyasi, vətəndaş və peşəkar dövlət xadimi obrazı formalaşıb. Onun Birinci vitse-prezident və Heydər Əliyev Fondunun rəhbəri kimi səmərəli fəaliyyəti Azərbaycanın dövlət idarəçiliyinə güclü impuls verir, xalqın iqtidara olan inamını daha da artırır.

YAP-ın yeni proqramı partiyanın İdarə Heyətinin 2021-ci il 29 dekabr tarixli iclasında təsdiq edilib. Sənəd 5 fəsildən ibarətdir: Bunlar aşağıdakılardır: "Partiyanın inkişafı və uğurları", "Siyasi dəyərlər və prinsiplər","Partiyadaxili münasibətlərin və partiyanın fəaliyyətinin əsasları", "Partiyanın əsas hədəfləri" və "Müzəffər liderlə Azərbaycanı yeni zirvələrə aparan güclü partiya". Yeni proqramda YAP-ın siyasi dəyərlər və prinsiplər sistemində 10 strateji istiqamət müəyyən olunub.

***Mübariz ABDULLAYEV***




# Yeni Azərbaycan Partiyası: dövlətçilik yolunda 33 illik siyasi irs

21 noyabr - Yeni Azərbaycan Partiyasının təsis olunması dövlətimizin ən çətin dönəmlərində xalqın xilasa inamını yenidən alovlandıran tarixi günlərdən biridir.

1992-ci il 21 noyabrda, ölkənin dərin siyasi və iqtisadi böhran yaşadığı, idarəçilikdə xaosun hökm sürdüyü bir şəraitdə Yeni Azərbaycan Partiyasının yaradılması təşəbbüsü Azərbaycan dövlətçiliyinin gələcəyini düşünən ziyalıların və milli maraqlara sadiq şəxslərin iradəsinin nəticəsi oldu. Bu təşəbbüsün mahiyyətində Heydər Əliyev kimi böyük dövlət xadiminin ətrafında birləşərək ölkəni tərəqqiyə aparacaq yeni siyasi qüvvənin formalaşdırılması dayanırdı.

Azərbaycanın ən yeni siyasi tarixinə "91-lər" kimi daxil olmuş vətənpərvər ziyalıların imzaladıqları müraciət isə bu prosesin əsas dönüm nöqtəsi oldu. Onlar Heydər Əliyevin yaradılacaq partiyaya rəhbərlik etməsini xahiş edərək milli düşüncəyə, dövlətçilik ideallarına söykənən siyasi təşkilatın əsasının qoyulmasına çağırış edirdilər.



***Ziyafət ƏSGƏROV,***
***Azərbaycan Respublikası***
***Milli Məclisinin Sədr müavini***

1992-ci ilin 21 noyabrında Naxçıvanda keçirilmiş təsis konfransı isə bu tarixi çağırışın gerçəkliyə çevrildiyi gün kimi yadda qaldı. Ölkənin müxtəlif bölgələrini təmsil edən 550 nəfərlik təşəbbüs qrupu Ümummilli Lider Heydər Əliyevin sədrliyi ilə Yeni Azərbaycan Partiyasının yaradılması barədə qərar qəbul etdi. Bununla da Azərbaycanın siyasi səhnəsində sonrakı onilliklərin inkişaf xəttini müəyyən edən güclü və aparıcı siyasi qüvvə formalaşmış oldu.

Konfransda Yeni Azərbaycan Partiyasının Nizamnaməsi və Proqramı qəbul edildi, Heydər Əliyev yekdilliklə partiyanın sədri seçildi. Bu qərar xalqın öz liderinə olan etimadının təsdiqi idi. YAP-ın yaranması ilə Azərbaycan siyasi məkanında sabitlik, sistemlilik və məsuliyyət prinsipləri üstünlük qazandı. Ulu Öndərin rəhbərliyi altında partiya qısa müddətdə ölkənin aparıcı siyasi qüvvəsinə çevrildi.

Heydər Əliyevin rəhbərliyi YAP-ı dövlətin inkişaf konsepsiyasını formalaşdıran aparıcı qüvvəyə çevirdi. Böhran içində olan dövlətçiliyi bərpa edən, sabitliyi və inkişafı təmin edən siyasi kursun əsas ideoloji dayağı məhz YAP oldu. Ulu Öndər partiyanı "dünənin, bu günün və sabahın partiyası" adlandırmaqla onun tarixi missiyasını aydın şəkildə müəyyənləşdirmişdi.

Son üç onillik ərzində YAP ölkədə sabitliyin, inkişafın və siyasi institutların möhkəmlənməsinin təminatçısı kimi fəaliyyətdə olub. Hal-hazırda partiya yalnız hakim siyasi güc deyil, həm də geniş sosial bazaya, müxtəlif təbəqələrdən olan insanları birləşdirən milli platformaya çevrilmişdir. YAP-ın gücü onun xalqa söykənən siyasi fəlsəfəsində, milli maraqlara əsaslanan idarəçilik konsepsiyasında və ardıcıllıq prinsipinə söykənən siyasi xəttindədir.

Yeni Azərbaycan Partiyasının inkişaf xətti Heydər Əliyev yolunun mahiyyətini və strateji dərinliyini qorumaqla yanaşı, müasir dövrün çağırışlarına adekvat şəkildə yenilənir. 2005-ci il 26 mart tarixində keçirilmiş III qurultayda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin partiya sədri seçilməsi bu varislik prinsipinin ən mühüm göstəricisi oldu. İlham Əliyevin rəhbərliyi YAP-ın dövlətçilik siyasətində ardıcıllıq, yeni siyasi idarəçilik mədəniyyəti və qlobal çağırışlara milli maraqlara uyğun cavab strategiyası ilə səciyyələnir.

YAP-ın müasir mərhələdə əldə etdiyi uğurlar Prezident İlham Əliyevin siyasi liderliyinin nəticəsidir. Onun VII qurultaydakı çıxışında vurğuladığı kimi, xalq 2003-cü ildə Heydər Əliyev siyasətinə səs verməklə inkişafın yeni dövrünün başlanğıcını qoydu. Son 20 ildə Azərbaycanın dövlətçilik modelində baş verən sistemli dəyişikliklər, iqtisadi modernizasiya, güclü ordu, milli həmrəyliyin möhkəmləndirilməsi və beynəlxalq nüfuzun artması bu strategiyanın real nəticələridir. Bu dövr Azərbaycanın siyasi tarixində yeni inkişaf mərhələsi kimi xarakterizə olunur.

2021-ci il 5 martda keçirilmiş VII qurultay partiya həyatında yeni strukturlaşma və modernləşmə mərhələsinin əsasını qoydu. Qəbul edilmiş yeni Nizamnamə, yenilənmiş idarəetmə orqanları, Veteranlar Şurasının yaradılması və təşkilati islahatlar YAP-ın institusional gücünü daha da artırdı. Eyni zamanda Prezident İlham Əliyevin müvafiq qərarı ilə Mehriban Əliyevanın partiya sədrinin birinci müavini təyin edilməsi ölkəmizdə qadın liderliyinə verilən yüksək qiymətin, milli siyasətdə yeni idarəetmə modelinin və humanist dəyərlərin təcəssümüdür.

Yeni Azərbaycan Partiyası VII qurultaydan sonra qarşıya yeni vəzifələr qoydu. Bu vəzifələr ölkədə gedən köklü siyasi, sosial-iqtisadi və institusional islahatlara partiyanın aktiv dəstəyini, siyasi dialoqun dərinləşməsini və yeni siyasi konfiqurasiyanın formalaşmasında fəal iştirakını nəzərdə tutur. Partiyanın ideoloji xəttində dinamizm, çeviklik və müasir tendensiyalara uyğunlaşma xüsusi yer tutur.

Müasir beynəlxalq münasibətlər sistemində güc faktoru və siyasi dinamika əhəmiyyətini qoruyub saxlayır. Bu baxımdan, Yeni Azərbaycan Partiyası (YAP) Azərbaycanın milli maraqlarını müdafiə edərək dövlətimizin xarici siyasət prioritetlərini strateji və adekvat şəkildə formalaşdırır. Partiyamızın fəaliyyəti beynəlxalq əməkdaşlıq mexanizmlərinin inkişafına töhfə verərək, Azərbaycanın qlobal təşəbbüslərdə fəal iştirakını təmin edir. Azərbaycanın dayanıqlı inkişaf modelində, xüsusilə enerji diplomatiyası və iqtisadi əməkdaşlıq sahələrində YAP-ın rolu böyükdür.

YAP-ın müəyyən etdiyi strateji hədəflər Azərbaycanın ümumi inkişafını təmin etmək məqsədini güdür. Bu hədəflər arasında güclü iqtisadiyyatın qurulması, sosial ədalətin təminatı, şəffaflığın artırılması və mədəni irsin qorunması xüsusi yer tutur. Xüsusilə "Böyük Qayıdış" proqramı işğaldan azad olunmuş ərazilərin bərpası və inkişafı üçün nəzərdə tutulan ən mühüm strateji istiqamətlərdəndir. Bu hədəflərin həyata keçirilməsi, Azərbaycan Respublikasının Prezidenti və YAP - ın sədri İlham Əliyevin liderliyi ilə ölkənin iqtisadi, sosial və siyasi inkişafında əsaslı irəliləyişlərə nail olunmasına zəmin yaratmışdır.

Son illərin seçki nəticələri xalqın Yeni Azərbaycan Partiyasına göstərdiyi yüksək etimadın bariz ifadəsidir. 2024-cü il fevralın 7-də keçirilmiş prezident seçkilərində YAP-ın namizədi İlham Əliyevin 92,12 faiz səslə qalib gəlməsi həm dövlət başçısının siyasətinə, həm də partiyanın strateji kursuna cəmiyyət tərəfindən göstərilən güclü dəstəyin nümayişi oldu.

Ardınca, 2024-cü il sentyabrın 1-də keçirilən yeddinci çağırış Milli Məclis seçkilərində Yeni Azərbaycan Partiyasının parlamentdə 68 deputatla təmsil olunmaq imkanı qazanması, eləcə də 2025-ci il yanvarın 29-da baş tutan bələdiyyə seçkilərində qələbə qazanaraq yerlərin böyük əksəriyyətini əldə etməsi, YAP-ın ölkənin siyasi sistemində lider mövqeyini bir daha təsdiqlədi. Bu ardıcıl qələbələr partiyanın cəmiyyətin geniş təbəqələri tərəfindən dəstəkləndiyini və dövlətçilik yolunda aparıcı siyasi qüvvə kimi möhkəm mövqeyə malik olduğunu göstərir.

Yeni Azərbaycan Partiyası bu gün Azərbaycanın siyasi, iqtisadi və sosial tərəqqisinə yönəlmiş proseslərin aparıcı qüvvələrindən biri kimi çıxış edir.Partiyanın müəyyənləşdirdiyi strateji hədəflər və əsas prinsiplər dövlətimizin milli maraqlarına, eləcə də müasir dövrün qlobal çağırışlarına uyğun şəkildə formalaşmışdır. YAP-ın liderliyi ilə həyata keçirilən islahatlar və inkişaf proqramları ölkənin davamlı yüksəlişinə və xalqın rifahının artırılmasına xidmət edərək gələcək nəsillər üçün möhkəm və dayanıqlı baza yaradır.

Partiyanın 33 illik şərəfli fəaliyyəti onun dövlətçiliyə və xalqa sadiqliyinin parlaq nümunəsidir. Yeni Azərbaycan Partiyası bu gün də ölkənin siyasi həyatında mühüm rol oynamaqda davam edir və inkişaf strategiyasını böyük inamla gələcəyə doğru yönəldir.

# Zəfərlər Partiyası - 33

Noyabrın 19-da Yeni Azərbaycan Partiyası (YAP) Sədərək rayon təşkilatı partiyanın yaradılmasının 33-cü il dönümü münasibətilə "Yeni azərbaycan partiyasına xidmət etmək vətənə, millətə, müstəqil azərbaycan dövlətinə xidmət etmək deməkdir" mövzusunda tədbir keçirilib.

Tədbirdən öncə iştirakçılar Ümummilli Lider Heydər Əliyevin İcra Hakimiyyəti önündəki büstünü ziyarət edərək gül dəstələri qoyublar, xatirəsini ehtiramlarla anıblar.

Tədbirdə əvvəlcə Ulu Öndər Heydər Əliyevin və ölkəmizin suverenliyi və ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərin əziz xatirəsi ehtiramla yad edilib. Dövlət Himni səsləndirilib.








Tədbiri giriş sözü ilə açan YAP Sədərək rayon təşkilatının sədri Arif Qasımov partiyanın yarandığı mürəkkəb tarixi-siyasi şəraitdən, keçdiyi çətin və şərəfli mübarizə yolundan, Heydər Əliyevin xalqın və dövlətin qarşısında göstərdiyi böyük xidmətlərindən danışıb: "Azərbaycan Respublikasının çağdaş, siyasi həyatında əhəmiyyətli rol oynayan, bu gün sıralarında 800 minə yaxın insfnı bir ideya ətrafında birləşdirən Yeni Azərbaycan Partiyasının yaranmasından 33 il ötür. Ötən dövr ərzində Yeni Azərbaycan Partiyası özünün proqramına, prinsipinə, amalına sadiq olduğunu bir daha sübut edərək, Azərbaycanı demokratik ölkəyə çevirmiş və müstəqilliyimizin möhkəmlənməsində və inkişafında əzmlə mübarizə aparmışdır.

Ümummilli Liderimiz Heydər Əliyev partiyanın II qurultayında onun yaranma səbəbini və tarixi missiyasını təhlil edərək demişdir: "Yeni Azərbaycan Partiyası o vaxtkı mövcud vəziyyətdə bütün Azərbaycan xalqının mənafeyinə xidmət etmək üçün və xalqın o ağır dövründə ölkəmizin qarşısında duran məsələləri həll etməsi üçün zamanın tələblərinə uyğun olaraq yaranmış bir partiyadır". Ötən 33 il ərzində Azərbaycanın siyasi və iqtisadi müstəqilliyi daha da möhkəmlənib, ölkəmizin beynəlxalq aləmdə mövqeyi güclənib, Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının sədri cənab İlham Əliyevin həyata keçirdiyi siyasət ölkəmizə böyük nüfuz qazandırıb, Azərbaycanın regionun lider dövlətinə çevirib. Ölkəmizin iqtisadi cəhətdən qüdrətlənməsi əhalinin sosial şəraitinin yaxşılaşmasına səbəb olub.

Azərbaycan tarixdə heç vaxt indiki qədər güclü olmamışdır. 33 il ərzində dinamik inkişaf edən Azərbaycanın qazandığı nailiyyətlərdə bütövlükdə Yeni Azərbaycan Partiyasının sədri, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin və partiyanın hər bir üzvünün özünəməxsus töhfələri var.

İqtisadi inkişaf və hərbi güc Ermənistan-Azərbaycan münaqişəsinin həllində ölkəmizin üstün mövqeyi əldə etməsinə, YAP Sədri, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan 44 günlük Vətən müharibəsində möhtəşəm qələbə qazanaraq tarixi ədalətin və ərazi bütövlüyünün bərpasına nail oldu. Beləliklə, Azərbaycan Ümummilli Lider Heydər Əliyevin təməlini qoyduğu müstəqillik və tərəqqi yolunda əmin addımlarla irəliləyərək Zəfər zirvəsinə yüksəldi".

Arif Qasımov vurğulayıb ki, 2020-ci il 44 günlük Vətən müharibəsində qazanılan tarixi zəfər əsasən Ümummlli Lider Heydər Əliyevin müəyyən etdiyi və Yeni Azərbaycan Partiyası Sədri, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin təkminləşdirərək müasirləşdirdiyi milli dövlətçilik strategiyasının nəticəsidir.

Bu gün Azərbaycanın ərazi bütövlüyü, Qarabağda, Şuşada qürurla dalğalanan bayrağımız, milli dövlətimiz, müstəqilliyimiz, suverenliyimiz, dünya xalqları arasında öz layiqli yerimizi tutmağımız Yeni Azərbaycan Partiyasının apardığı 33 illik mübarizənin nəticəsidir. Bundan sonra da Yeni Azərbaycan Partiyasının amalı Ümummilli Liderimiz Heydər Əliyevin ideyalarını yaşatmaq və həyata keçirməkdir.

# “Yeni Azərbaycan Partiyası: Heydər Əliyev dühası və siyasi varislik”





Noyabrın 20-də Yeni Azərbaycan Partiyası (YAP) Veteranlar Şurasının və partiyanın Binəqədi rayon təşkilatının birgə təşkilatçılığı ilə YAP-ın təsis edilməsinin 33-cü ildönümünə həsr olunmuş “Yeni Azərbaycan Partiyası: Heydər Əliyev dühası və siyasi varislik” mövzusunda tədbir keçirilib.

Əvvəlcə Ulu Öndər Heydər Əliyevin YAP Binəqədi rayon təşkilatının inzibati binası qarşısındakı abidəsi ziyarət edilərək önünə gül dəstələri düzülüb.

Tədbirdə Ulu Öndər Heydər Əliyevin, Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını qurban vermiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Sonra Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Tədbiri giriş sözü ilə açan YAP Binəqədi rayon təşkilatının sədri Vüsar İsmayılov Ümummilli Lider Heydər Əliyevin mənalı ömür yolu, zəngin və çoxşaxəli irsi barədə danışıb. O, Yeni Azərbaycan Partiyasının ötən dövr ərzində şərəfli yol keçərək ümumxalq partiyasına çevrildiyini deyib. V.İsmayılov qeyd edib ki, Ulu Öndər Heydər Əliyevin yaradıcısı olduğu Yeni Azərbaycan Partiyası Prezident İlham Əliyevin rəhbərliyi ilə müstəqillik yolunda inamla irəliləyir, Azərbaycanın hərtərəfli inkişafına mühüm töhfələr verir.



Çıxış edən YAP Veteranlar Şurasının sədri, partiyanın İdarə Heyətinin üzvü Arif Rəhimzadə bildirib ki, Ümummilli Lider Heydər Əliyevin genişmiqyaslı fəaliyyəti dövlətçilik məktəbidir və Ulu Öndər yolunun alternativi yoxdur. Millətinin və dövlətinin ali mənafeyini öz fəaliyyətində daim təməl prinsip kimi qəbul edən Ümummilli Lider müstəqil Azərbaycanın qurucusudur.

YAP Veteranlar Şurasının sədri Ulu Öndərin rəhbərliyi ilə 1992-ci ilin noyabr ayının 21-də Yeni Azərbaycan Partiyasının yaradılmasının müasir dövlətçilik tariximizdə əlamətdar hadisə olduğunu, regionun aparıcı siyasi qüvvəsinə çevrildiyini deyib. O vurğulayıb ki, Prezident, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev Heydər Əliyev siyasətini uğurla davam etdirir: “Dövlət başçımız xalqımıza tarixi Zəfər bəxş etmiş Müzəffər Liderdir. Bu gün bütün Azərbaycan xalqı, o cümlədən partiya sıralarında birləşən hər bir üzv qürurludur”.

Binəqədi Rayon İcra Hakimiyyətinin başçısı Elxan Allahverdiyev müasir Azərbaycan tarixinin böyük bir dövrünün dahi şəxsiyyət, müdrik siyasətçi Heydər Əliyevin adı və fəaliyyəti ilə bağlı olduğunu deyib. O qeyd edib ki, Ümummilli Liderin ölkəmizə rəhbərliyi dönəmində Azərbaycan bütün sahələrdə misilsiz inkişaf yolu keçib. E.Allahverdiyevin sözlərinə görə, Heydər Əliyev siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində Azərbaycan regionun lider dövlətinə çevrilib, ölkəmizin ərazi bütövlüyü və suverenliyi tam təmin edilib.

Tədbirdə, həmçinin YAP Veteranlar Şurasının sədr müavini, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi sədrinin müavini Sədaqət Qəhrəmanova, “91-lər”dən, YAP Veteranlar Şurasının üzvü Tahir Məmmədov və YAP Veteranlar Şurasının üzvü Tahir Quliyev çıxış edərək Heydər Əliyevin çoxəsrlik Azərbaycan dövlətçiliyinin möhkəmlənməsində və Yeni Azərbaycan Partiyasının formalaşmasında əvəzsiz xidmətləri barədə danışıblar.

Vurğulanıb ki, Heydər Əliyev dühası ölkəmizin sabitlik, inkişaf və müasirlik yolunu müəyyən edən əsas strateji xətt kimi bu gün də aktuallığını qorumaqdadır. Ümummilli Lider Heydər Əliyevin ölkəmizin tərəqqisi naminə həyata keçirdiyi mühüm islahatlar və irimiqyaslı layihələr Prezident İlham Əliyevin rəhbərliyi ilə müasir dövrün çağırışlarına uyğun olaraq uğurla davam və inkişaf etdirilir.

Daha sonra partiya sıralarına yeni qəbul olunan şəxslərə üzvlük vəsiqələri təqdim olunub.

Tədbirin rəsmi hissəsi Yeni Azərbaycan Partiyasının Himninin səsləndirilməsi ilə başa çatıb.

Sonda bədii hissə təqdim olunub.



# İdeologiya ideala çevriləndə...

## Azərbaycançılığın təbliği hər zaman prioritetdir!

Azərbaycançılıq ideyası birliyimizin və Vətənə bağlılığımızın təməl prinsiplərindən biridir. Bu ideya bütün azərbaycanlıların Vətən sevgisi, dilinə, mədəniyyətinə və tarixinə bağlılığı üzərində formalaşır. Azərbaycançılıq təkcə etnik mənsubiyyəti deyil, Azərbaycan Respublikasının vətəndaşı olan hər kəsi əhatə edən bir dəyər sistemidir.

Bu ideyanın təbliği və qorunması həm dövlət, həm də cəmiyyət üçün böyük əhəmiyyət kəsb edir. Hər bir vətəndaşın şəxsi məsuliyyəti də bu ideyanın yaşadılması və gələcək nəsillərə ötürülməsində mühüm rol oynayır. Ona görə də ölkəmizin gələcəyi azərbaycançılıq ideyasına sadiq, savadlı və vətənpərvər nəsillərin yetişməsindən asılıdır.

Mövzunu “Yeni Azərbaycan”a dəyərləndirən Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Kamal Cəfərov bildirib ki, müstəqil Azərbaycanın mövcudluğu, inkişafı və daha da güclənməsi naminə hər birimiz öz sahəmizdə lazımi addımları atmalıyıq: “Azərbaycançılıq ideologiyası bütün təbliğat vasitələri ilə cəmiyyətə aşılanmalıdır. Gənclərimiz vətənpərvərlik və azərbaycançılıq ruhu ilə silahlanmalıdır. Hər bir sahədə bu ideologiyanın möhkəmləndirilməsi istiqamətində konkret addımlar atılmalıdır”.

K.Cəfərov onu da vurğulayıb ki, cəmiyyətin bütövlükdə azərbaycançılıq ideologiyası ilə silahlanması üçün hər kəs öz fəaliyyət sahəsində üzərinə düşən məsuliyyəti dərk etməlidir: “Gənc nəsil Azərbaycan dövlətinin güclənməsi, demokratik institutların inkişafı, milli və dövlətçilik dəyərlərinin möhkəmləndirilməsi istiqamətində fəal olarsa, dövlətimiz daha da güclü olar. Bu baxımdan müəyyən işlər görülür, lakin bu istiqamətdə fəaliyyət daha da gücləndirilməlidir. Bir daha qeyd edirəm ki, hər kəs öz sahəsində gərəkən addımları atmalıdır ki, uğurlu nəticələr əldə olunsun”.

Millət vəkilinin sözlərinə görə, azərbaycançılıq ideologiyası həm də birləşdirici missiyanı həyata keçirir:

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə “Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi”nin maliyyə dəstəyi ilə “Azərbaycançılıq ideyasının təbliği” istiqaməti üzrə hazırlanmışdır**

“Azərbaycan doğma vətənimizdir. Bu kontekstdə azərbaycançılıq ideologiyasının təbliği mühüm əhəmiyyət kəsb edir. Həm dövlət səviyyəsində, həm də cəmiyyətin müxtəlif sferalarında bu ideologiyanın təşviqi zəruridir. Xüsusilə də uşaqlıqdan, gənclik dövründən başlayaraq gənclərimizə və orta nəsil nümayəndələrinə azərbaycançılıq dəyərlərinin aşılanması vacibdir.

Şükürlər olsun ki, Azərbaycan gənci və xalqı dövlətimizin mövcudluğu və güclənməsi üçün daim əlindən gələni edir. Bunu xüsusilə də İkinci Qarabağ müharibəsi zamanı bir daha gördük. Uşaqdan-böyüyə qədər hər kəs dövlətimizin qüdrətini artırmaq, torpaqlarımızı işğaldan azad etmək və suverenliyimizi bərpa etmək üçün bütün imkanlarını səfərbər etməyə hazır olduqlarını nümayiş etdirdilər”.

Deputat qeyd edib ki, bir zamanlar müəyyən narahatlıqlarımız var idi: “Xüsusilə də, televiziyada bəzən milli dəyərlərimizə və mentalitetimizə uyğun olmayan verilişlərin efirə verilməsi gənclərin dövlətçilik ruhunda tərbiyə olunmasına mənfi təsir göstərə bilərdi.

Lakin sevindirici haldır ki, bu ideologiya xalqımızın gen yaddaşında möhkəm yer tutub. Bu, bizi bir qədər rahatlaşdırsa da, bu sahədə işlərimizi davam etdirməliyik. Azərbaycançılıq ideologiyamızın ətrafında etnik mənsubiyyətindən asılı olmayaraq ölkədəki bütün insanlar birləşib. Bu da ondan irəli gəlir ki, Azərbaycanda yaşayan bütün xalqlar azərbaycançılıq ideyasını birləşdirici, vəhdət yaradıcı bir ideya kimi qəbul etməklə yanaşı, həm də bunu dərindən dərk edir. Bu baxımdan azərbaycançılıq ideyası, demək olar ki, əhalinin bütün spektrini əhatə edir.

Ümumiyyətlə, Azərbaycanda xalqların tarixi, adət-ənənələri, dil və mədəniyyətləri də qorunub inkişaf etdirilir. Eyni zamanda, bu ideologiya siyasi, dövlətçilik ideologiyasıdır. Həmçinin sözügedən ideologiya Azərbaycan xalqının və dövlətinin güclü olmasına yönəlib. Bununla belə, bu ideologiyanın hər bir azərbaycanlıya hakim olmasından ötrü daha geniş tədbirlər həyata keçirilməlidir. Habelə, güclü maarifləndirmə işi aparılmalıdır. Azərbaycanın tarixi, coğrafiyası, iqtisadiyyatı, mədəniyyəti, hərb sənətilə bağlı sadə və konkret biliklər verilməlidir. Azərbaycanın regionda və dünyada tutduğu mövqe izah edilməlidir. Çünki milli ideologiyasız millət şax, dik dayana bilməz. İdeologiya ideala çevriləndə nəticə verir. Ona görə də azərbaycançılıq ideologiyası çox taleyüklü bir məsələdir”.

***Yeganə***

# Azərbaycan-ABŞ münasibətləri: davamlı, etimada söykənən, inkişafı hədəfləyən...

## Bakı ilə Vaşinqton arasında əlaqələr daha da genişləndirilir

**Azərbaycanın sülh təşəbbüsləri bütövlükdə Cənubi Qafqaz, eləcə də Mərkəzi Asiya və başqa yaxın coğrafiyalar üçün mühüm inkişaf perspektivləri yaradır. Bu mənada aparılan siyasət, atılan addımlar beynəlxalq aləm tərəfindən ciddi izlənir - xüsusilə, bu ilin avqustunda reallaşan Vaşinqton görüşlərinin ardından yaranan yeni situasiya olduqca pozitiv mesajlar verir. Zəngəzur dəhlizi ideyası, Orta Dəhlizin dirçəldilməsi, enerji və yaşıl gündəlik layihələri - bütün bunlar Azərbaycanın sülh təşəbbüslərinin çoxşaxəli olduğunu ortaya qoyur. Paralel olaraq yaranan vəziyyət ölkəmizi regionun strateji mərkəzinə çevirir. Bu ünvandan yüksələn hər bir təşəbbüs, hər bir layihə qlobal iqtisadiyyatın, siyasətin və təhlükəsizliyin istiqamətlənməsinə təsir göstərir. Vurğulandığı kimi, bu amil diqqəti cəlb edir - xüsusilə, yeni bir mərhələyə qədəm qoymuş Azərbaycan-ABŞ münasibətlərində artıq davamlı yaxınlaşmalar, siyasi dialoqun inkişafı nəzərə çarpır. Ölkəmizə səfər edən ABŞ rəsmiləri regional inkişafa verdiyimiz töhfələri yüksək dəyərləndirir, sülh istiqamətində qətiyyətli addımlarımıza qiymət verir. Yeri gəlmişkən noyabrın 19-da Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ABŞ Dövlət katibinin siyasi məsələlər üzrə müavini Alison Hukerlə görüşüb. Görüş zamanı Azərbaycan-ABŞ ikitərəfli əməkdaşlığının cari vəziyyəti və inkişaf perspektivləri, Azərbaycan-Ermənistan sülh prosesi, eləcə də regional və qlobal təhlükəsizlik məsələləri ətrafında geniş fikir mübadiləsi aparılıb.**

### İkitərəfli əlaqələr: yaxın dostluq, etibarlı tərəfdaşlıq...

Qeyd edilməlidir ki, ABŞ - Azərbaycan münasibətləri geniş s-pektrli olmaqla yanaşı, həm də tərəfdaşlığa əsaslanır. Bəlli olduğu kimi, rəsmi Vaşinqton dünyanın iqtisadi-siyasi nəbzini formalaşdıran mühüm güc mərkəzlərindən biri sayılır. Nəhəng iqtisadiyyata, müqayisəyəgəlməz siyasi çəkiyə malik olan bu dövlətin son proseslərdə Cənubi Qafqaza, xüsusilə Azərbaycana diqqət yetirməsi bir sıra mətləblərdən xəbər verir. Azərbaycanı hər zaman özünün strateji tərəfdaşı kimi xarakterizə edən rəsmi Vaşinqton əməkdaşlığın çoxşaxəli olmasında maraqlı olduğunu ortaya qoyur.

ABŞ - Azərbaycan münasibətlərində beynəlxalq terrorizmə qarşı mübarizə sahəsində yaxın əməkdaşlıq xüsusi bir xəttlə keçir. Qarşılıqlı etimad və maraqlar əsasında qurulan Azərbaycan-ABŞ əlaqələri hər iki tərəfin mənafeyinə cavab verməklə yanaşı, beynəlxalq sülh və təhlükəsizliyin təmin olunmasına da töhfədir. Dünyada gedən bir sıra siyasi proseslər, müxtəlif ölkələr daxilində yaranan gərginlik, beynəlxalq cinayətkar qruplaşmaların, terrorçu təşkilatların fəaliyyətini genişləndirməsi hər iki dövlətin təhlükəsizlik sahəsində ikitərəfli və çoxtərəfli əməkdaşlığının əhəmiyyətini dəfələrlə artırıb. Paralel olaraq Azərbaycanın yürütdüyü enerji siyasəti son 30 ildə nəinki regionun, daha böyük coğrafiyanın mənzərəsini və enerji xəritəsini dəyişib. Vacib qlobal layihələrin ərsəyə gəlməsi, bu layihələrin daha geniş əməkdaşlıqlara meydan açması, yeni mərhələlər formalaşdırması göz önündədir - bu gün Azərbaycan Avropanın enerji təhlükəsizliyində əsaslı rol oynayır, Şimal-Cənub, Şərq - Qərb enerji tranzitinin mühüm logistik mərkəzlərindən sayılır. Azərbaycan ötən müddət ərzində enerji təhlükəsizliyi sahəsində etibarlı tərəfdaş kimi özünü təsdiqləyib: yeni neft-qaz strategiyasında enerji nəqli marşrutlarının şaxələndirilməsini əsas prioritetlərdən biri kimi müəyyənləşdirən ölkəmiz bu gün regional və qlobal enerji təhlükəsizliyinə mühüm töhfələr verir. Birləşmiş Ştatlar isə Azərbaycanın enerji strategiyasını bütün mərhələlərdə qətiyyətlə və davamlı şəkildə dəstəkləyib.



Ceyhun Bayramov ilə Alison Huker arasında baş tutan görüşdə həmçinin avqustun 8-də tarixi Vaşinqton görüşü zamanı əldə edilmiş razılıqlar məmnunluqla xatırlanaraq, iki ölkə arasında strateji tərəfdaşlığın inkişafı istiqamətində birgə səylərin vacibliyi qeyd olunub. Regional sabitlik, enerji təhlükəsizliyi və nəqliyyat dəhlizlərinin genişləndirilməsi sahəsində əməkdaşlığın gücləndirilməsinin əhəmiyyəti vurğulanıb. Bu çərçivədə Azərbaycanın əsas hissəsi və onun Naxçıvan Muxtar Respublikası arasında maneəsiz bağlantının təmin edilməsi məqsədilə ABŞ tərəfindən həyata keçiriləcək “Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu” üzrə işlərin sürətləndirilməsində maraqlı olduğumuz diqqətə çatdırılıb.

Həqiqətən də 2025-ci ilin 8 avqustunda Vaşinqtonda keçirilmiş yüksək səviyyəli görüş regionun və bütövlükdə dünyanın siyasi gündəliyində tarixi hadisə kimi qiymətləndirilməlidir. ABŞ Prezidenti, Azərbaycan Prezidenti və Ermənistanın baş naziri arasında aparılmış müzakirələr, imzalanmış sənədlər və əldə olunmuş razılaşmalar yalnız Cənubi Qafqazda yeni reallıqların təsbit olunmasına xidmət etmir, eyni za-

### Vaşinqton regionda yaratdığımız reallıqları yüksək dəyərləndirir...

manda, qlobal təhlükəsizlik, inteqrasiya və tərəqqi üçün də mühüm nəticələr vəd edir. Ən əsası, bu sənədlər Azərbaycanın strateji mövqelərinin gücləndirilməsinə, Azərbaycan-ABŞ tərəfdaşlığının yeni mərhələyə yüksəlməsinə və regional əməkdaşlığın daha dayanıqlı əsaslarda qurulmasına təkan verir. Bəli, münasibətlərin normallaşması Cənubi Qafqaz regionu üçün həm geostrateji, həm geoiqtisadi, həm də geosiyasi mənada yeni üfüqlər açır. Bu isə qlobal səviyyədə vacib nəticələr vəd edir. Rəsmi Vaşinqton ölkəmizin regionda yaratdığı yeni reallıqları yüksək dəyərləndirir. Bu isə ABŞ-ın Azərbaycanın yaxın tərəfdaşı olması həqiqətini növbəti dəfə nümayiş etdirməklə yanaşı, əlaqələri daha da möhkəmləndirməkdə, irəliyə daşımaqda maraqlı olduğunu sübut edir.

Azərbaycanın qərb bölgələri ilə Naxçıvan Muxtar Respublikası arasında maneəsiz gediş-gəlişi təmin edəcək layihənin Vaşinqton razılaşmalarında xüsusi yer alması da diqqətçəkicidir. Zəngəzur dəhlizi (TRİPP) seqmentinin beynəlxalq dəstəklə təsdiqlənməsi ölkəmizin daxili logistik imkanlarının yüksək dəyərləndirilməsi olmaqla yanaşı, həm də dünyaya yeni bir strateji tranzit alternativi təqdim edir. Bu, iqtisadi, siyasi və təhlükəsizlik baxımından regionun inkişafına xidmət edəcək mühüm nailiyyətdir. Bu layihə vasitəsilə Azərbaycan yalnız Cənubi Qafqazda deyil, bütövlükdə Avrasiya məkanında mühüm logistik qovşağa çevriləcək - paralel olaraq, geniş bir coğrafiyada yeni inkişaf mərhələsi formalaşdıracaq.

### Strateji Tərəfdaşlıq Xartiyası əlaqələrə yeni format qazandırır...

Görüşdə həmçinin qarşılıqlı maraq kəsb edən sahələrdə strateji tərəfdaşlığın gücləndirilməsinə xidmət edəcək Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanması məqsədilə iki ölkə arasında Strateji İşçi Qrupunun fəaliyyət istiqamətləri nəzərdən keçirilib, ikitərəfli praktiki əməkdaşlıq üçün institusional çərçivənin təsis edilməsinin vacibliyi diqqətə çatdırılıb. Cənubi Qafqaz regionunda sülh və sabitlik gündəliyi, ikitərəfli və çoxtərəfli platformalar çərçivəsində qarşıdakı dövr üçün fəaliyyət istiqamətləri müzakirə olunub. Ceyhun Bayramov qarşı tərəfə normallaşma prosesi çərçivəsində atılan addımlar, postmünaqişə dövründə bərpa-quruculuq işləri barədə məlumat verib.

Avqust görüşü zamanı imzalanan “Azərbaycan-ABŞ Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanması haqqında Strateji İşçi Qrupunun yaradılması” Anlaşma Memorandumu iki ölkə arasında məzmun etibarı ilə yüksək olan tərəfdaşlığa yeni rəng qatır - bu sənədin imzalanması Bakı-Vaşinqton əlaqələrində mühüm ştrixləri ortaya çıxarır. Belə ki, sənədin imzalanması Azərbaycan ilə ABŞ arasında əlaqələrin yaxın tərəfdaşlıq səviyyəsinə qalxdığını göstərir - sənədə görə, ABŞ artıq Cənubi Qafqazda sabitlik, enerji, nəqliyyat, təhlükəsizlik məsələlərində məhz Bakı ilə strateji koordinasiya aparmağı prioritet sayır. Eyni zamanda, iki ölkə arasındakı əməkdaşlıq institusional çərçivəyə salınır - başqa sözlə, münasibətlərin inkişaf imkanları artıq siyasi bəyanatlarla deyil, konkret planlar, yol xəritələri və hüquqi mexanizmlərlə idarə olunacaq. ABŞ ilə Azərbaycan arasında dialoqun daha da genişlənməsi və şaxələnməsinə imkan yaradan bu sənəd təhlükəsizlik və müdafiə, enerji və yaşıl keçid, iqtisadiyyat və investisiya, regional sabitlik və nəqliyyat dəhlizləri, humanitar əlaqələrdə də yeni format müəyyənləşdirir.

***P.SADAYOĞLU***

# Mərkəzi Asiya-Xəzər enerji həmrəyliyi

## Cənub Qaz Dəhlizinin yeni tranziti formalaşır

**Energetika Nazirliyində "Yaşıl Dəhliz Birliyi" MMC-nin iştirakçıları olan "AzərEnerji" ASC, "Qazaxıstan Elektrik Şəbəkəsi Əməliyyat Şirkəti" və "Özbəkistanın Milli Elektrik Şəbəkələri" ASC nümayəndələrinin ümumi yığıncağı keçirilib. Tədbirdə "Azərbaycan-Mərkəzi Asiya Yaşıl Enerji Dəhlizi" layihəsinin əhəmiyyətini vurğulanıb, layihənin üzv ölkələr arasında əməkdaşlığı yeni bir səviyyəyə çıxaracağı qeyd edilib. Bu çərçivədə "Yaşıl Dəhliz Birliyi" MMC-nin uğurlu fəaliyyətinin xüsusi önəm kəsb etdiyi bildirilib. Qeyd edək ki, Mərkəzi Asiyadan Xəzər dənizi vasitəsilə Avropaya bərpaolunan enerjinin nəqlini nəzərdə tutan "Yaşıl Enerji Dəhlizi" MMC 2025-ci il iyulun 1-də Bakıda təsis edilib. Birgə müəssisənin təsis edilməsi ilə layihənin həyata keçirilməsi həlledici mərhələyə daxil olub.**

### Azərbaycan, Qazaxıstan və Özbəkistanın müştərək qərarı

"Yaşıl Dəhliz Birliyi"nin əsası 2022-ci ildə Rumıniyada Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan hökumətləri arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Sazişin imzalanması ilə qoyulub. Sazişin icrasını təmin etmək məqsədilə 2024-cü ilin may ayında Azərbaycan, Rumıniya, Gürcüstan və Macarıstan arasında yeni enerji əməkdaşlığı üzrə birgə müəssisənin yaradılmasına dair memorandum imzalanıb və "yaşıl enerji"nin ixracında tranzitlərin birləşdirilməsi və vahid kabelin yaradılması üçün hüquqi çərçivə formalaşıb.

"Yaşıl enerji" həmrəyliyi halqası sonrakı dövrdə daha da genişlənib və türk dövlətləri olan Qazaxıstan və Özbəkistan dəhlizdə yer almaq niyyətlərini bəyan edib. 2024-cü il noyabrın 13-də Azərbaycan, Qazaxıstan və Özbəkistan prezidentləri İlham Əliyev, Kasım-Jomart Tokayev və Şavkat Mirziyoyevin üçtərəfli görüşü zamanı "Azərbaycan, Qazaxıstan və Özbəkistan hökumətləri arasında yaşıl enerjinin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş" imzalanıb. Sənəd Mərkəzi Asiyanın günəş və külək elektrik stansiyalarından alınan "təmiz enerji" potensialının Azərbaycan ərazisindən keçməklə Avropaya nəqli perspektivlərini nəzərdə tutur.



### Qarabağ Bəyannaməsinin bəndlərindən biri...

"Xəzər-Qara dəniz kabeli"ndə əsas enerji təchizatçıları sözsüz ki, türk dövlətləri olacaq. Layihədə əsas resurs mənbəyi kimi Mərkəzi Asiya və Xəzər regionu nəzərdə tutulur. Hazırda Xəzər dənizi bərpaolunan enerji mənbələri üzrə ən böyük ehtiyatlara malikdir. Təkcə Xəzər dənizinin Azərbaycana aid hissəsində külək enerji istehsalı üçün təxminən 157 QVt güc vardır. Eləcə də Qazaxıstan sektorunda da günəş və külək stansiyaları üçün zəngin resurslar var ki, hazırda bu sahədə infrastrukturlar yaradılır. Bu ölkənin külək potensialı ildə 1 trilyon 820 milyard kilovat/saatdan çox olduğu halda, günəş enerjisi isə 1 trilyon kilovat/saatdır. Yaxud Özbəkistanın Asiya çöllərində günəş enerjisi üçün resurslar xeyli böyükdür, külək enerjisinin potensialı 520 QVt, günəş enerjisinin potensialı isə 2 trilyon 58 milyard kVt təşkil edir. Bu isə Mərkəzi Asiya və Xəzər regionları arasında böyük bir yaşıl enerji səfərbər olunması üçün imkanları artırır. Ona görə də Xəzər-Qara dəniz kabeli türk dövlətlərinin və Avropa İttifaqının enerji maraqlarına xidmət edir və Mərkəzi Asiya və Qafqazın "yaşıl körpü"yə çevrilməsi istiqamətində səylər getdikcə artmaqdadır.

Qeyd edək ki, Azərbaycan-Qazaxıstan-Özbəkistan alyansının "yaşıl enerji" üzrə vahid siyasəti Şuşada Türk Dövlətləri Təşkilatının (TDT) dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşündə imzalanan Qarabağ Bəyannaməsinin əsas bəndlərindən birini təşkil edir. Sazişdə əsas hədəflərdən biri kimi üzv ölkələr arasında bərpaolunan enerji sahəsində birgə əlaqələrin vahid iqtisadi blokda birləşdirilməsi öz əksini tapıb. Bəyannamənin 11-ci bəndində TDT ölkələri bərpaolunan enerji və enerji səmərəliliyi sahələrində əməkdaşlığın inkişafı da daxil olmaqla enerji sahəsində strateji tərəfdaşlığın daha da artırılması və bu çərçivədə Azərbaycan-Qazaxıstan-Özbəkistan enerji sistemlərinin qarşılıqlı əlaqələndirilməsinə dəstəyini ifadə edib. Sənəddə, həmçinin türk dövlətləri tərəfindən bərpaolunan geniş enerji potensialının imkanları nəzərə alınaraq "yaşıl enerji"nin üzv dövlətlər və üçüncü ölkələr də daxil olmaqla ixracı və ticarəti üçün geniş enerji sistemlərinin inkişaf etdirilməsi bəyan olunub.




### Cənub Qaz Dəhlizinin "yaşıl tranziti"...

Azərbaycan "Qara dəniz kabeli"ni həm də Cənub Qaz Dəhlizində yer alan bütün ölkələrin ortaq ailəsi kimi görür və siyasəti də bu istiqamətdə irəliləndir. Məsələn, 2025-ci il aprelin 4-də Bakıda keçirilən Cənub Qaz Dəhlizi Məşvərət Şurası Nazirlərinin 11-ci və Yaşıl Enerji Məşvərət Şurasının 3-cü iclaslarında "yaşıl enerji" sahəsində vacib əməkdaşlığın ən nəhəng platforması kimi dəyərləndirilib. Bu layihə çərçivəsində "yaşıl hidrogen"lə bağlı ölkələrarası dialoqun artırılması qərara alınıb. Eyni zamanda, Azərbaycan və Avropa İttifaqı daxil olmaqla 24 ölkə, 8 beynəlxalq təşkilat və 44 şirkətin təmsil olunduğu tədbirdə "yaşıl enerji" sahəsində əməkdaşlığa dair sənədlər imzalanıb.

Beləliklə, Azərbaycanın 3 il əvvəl əsasını qoyduğu "yaşıl enerji" hərəkatına qoşulan ölkələrin sırasının genişlənməsi rəsmi Bakının enerji təşəbbüskarlığını və beynəlxalq nüfuzunu artırmaqdadır.

*E.CƏFƏRLİ*

# Rəqəmsal bankçılıq üçün səmərəli platforma

## Bakıda keçirilən IX Beynəlxalq Bank Forumunda dayanıqlı maliyyə ekosisteminin möhkəmləndirilməsi üçün hədəflər müəyyən edilib

**Bakıda keçirilən IX Beynəlxalq Bank Forumunda ölkəmizdə bank sektorunun inkişafı sahəsində son illərdə həyata keçirilən tədbirlər, müasir çağırışlardan irəli gələn yeni prirotitetlər, səmərəli maliyyə ekosisteminin inkişaf yolları, rəqəmsal transformasiya sahəsində əməkdaşlıq barədə faydalı müzakirələr aparılıb. Nağdsız iqtisadiyyat, rəqəmsal bankçılıq, maliyyə texnologiyaları, "yaşıl bank" həlləri kimi məsələlərin müzakirəsi üçün geniş platforma olan forumda "Sərhədsiz bankçılıq: Maliyyə məzənnəsini yenidən müəyyən edən qlobal qüvvələr", "Risklər və tənzimləyici təkamül", "Yerli banklar növbəti artım dalğasını necə formalaşdırır", "Etibarlı, təhlükəsiz və davamlı bank işi" mövzularında panel sessiyaları keçirilib. Tədbirdə çıxış edən "Azərbaycan Banklar Assosiasiyası"nın (ABA) prezidenti Zakir Nuriyev bildirib ki, son illərdə bank sektorunda institusional mühiti daha da yaxşılaşdırılıb, ödəniş xidmətləri və ödəniş sistemləri sahəsində qanunvericilik bazası beynəlxalq təcrübəyə uyğun təkmilləşdirilib, bazara rəqabətə davamlı iştirakçıların daxil olması təmin edilib. Ödəniş xidmətləri həyata keçirən elektron pul və ödəniş təşkilatlarının, ödəniş sistemi operatorunun sayı artıb. İslahatlar nəticəsində milli ödəniş sistemi infrastrukturu, yəni AZİPS, XÖHKS və AÖS üzərindən emal edilən ödəniş əməliyyatlarının ümumi dövriyyəsi genişlənməkdə davam edir. Belə ki, 2025-ci ilin yanvar-sentyabr aylarında Milli Ödəniş sistemləri üzərindən edilən ödənişlərin həcmi 590 milyard manat olub və 2024-cü ilin analoji dövrü ilə müqayisədə 9,4 faiz artıb.**

### Bank sektorunun aktivləri 56,1 milyard manata çatıb

Z.Nuriyevin sözlərinə görə, bu dövrdə ödəniş kartları ilə ölkə daxilində aparılan ödəniş əməliyyatlarının həcmi 72,2 milyard manat təşkil edib ki, bu da ötən ilin 3-cü rübünə nisbətə 29,1 faiz çoxdur. Bu sürətli artım nağdsız ödənişlərin ümumi ödənişlərdəki payını da 4 faiz bəndi yüksələrək 67,4 faizə çatdırıb. Ötən 10 ay ərzində nağdsız əməliyyatların xüsusi çəkisinin 67 faizə yüksəlməsi, ödəniş kartları və POS-terminal infrastrukturunun genişlənməsi, internet və mobil bankçılıq xidmətlərindən istifadənin artması sektorun rəqəmsal transformasiyasının real nəticələrini əks etdirir.

2025-ci ilin üçüncü rübünün sonuna bank sektorunun aktivləri isə 10,4 faiz artaraq, tarixi həddi ilk dəfə keçib və 56,1 milyard manata yüksəlib. Bu artımda əsas pay aktivlərin yarıdan çoxunu təşkil edən kredit portfelinə məxsusdur. Bu dövrdə kredit portfeli 9,6 faiz artaraq 29,3 milyard manata çatıb. Biznes kreditlərinin qalıq həcmi də 1,1 milyard manat artaraq 15,5 milyard manata yüksəlib. Bu dövrdə banklarda fiziki şəxslərin əmanətləri 15,4 milyard manat, müddətli əmanətlər isə 9,7 milyard manat təşkil edib ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə müvafiq olaraq 11 faiz və 18 faiz artım deməkdir. Ev təsərrüfatlarının əmanətlərində dollarlaşma səviyyəsi 34,6 faizdən 32,3 faizə enib. Hesabat dövründə bankların kapitalı illik müqayisədə 14 faiz artaraq 7,2 milyard manata yüksəlib. Bank sektorunun xalis mənfəəti isə 8,2 faiz artaraq 911 milyon manata çatıb.



### Sinqapur və Malayziyanın bank modelləri tətbiq olunacaq

ABA rəhbəri vurğulayıb ki, rəqəmsal ödəniş ekosistemi sahəsində regional səviyyədə inkişafın təmin edilməsi məqsədilə qonşu ölkələrlə, o cümlədən Türkiyə və Gürcüstanla "sandbox" rejiminin (Tənzimləyici Test Rejim) qarşılıqlı olaraq tətbiqi imkanları qiymətləndirilir. Bu sahədə uğurlu nümunə olaraq Sinqapur və Malayziya arasında olan təcrübə təhlil edilir. Nəticədə, bu yanaşma region ölkələri arasında inteqrasiya əlaqələrinin daha da dərinləşməsinə imkan verəcək.

Z. Nuriyev bank sektorunda zəruri hesab edilən islahatlar barədə də fikirlərini açıqlayıb. Strateji hədəfə uyğun olaraq, Mərkəzi Bankın nəzdində innovasiya habının yaradılması, rəqəmsal bankçılıq üzrə yeni nəsil qanunvericilik bazasının qəbul edilməsi, ödəniş xidmətləri və ödəniş sistemləri sahəsində qanunvericilik bazasının mövcud reallıqlar və inkişaf tendensiyası nəzərə alınaraq təkmilləşdirilməsi, habelə "sandbox" rejimində tətbiq edilən nəzarət çərçivəsinin yumşaldılması nəzərdə tutulur. Habelə Ani Ödənişlər Sisteminin funksional imkanlarının və digər ödəniş sistemlərinin dövriyyəsinin cəlb edilməsi, alternativ ödəniş aləti olaraq QR-kodun tətbiqi, innovativ ödəniş alətlərinin, NFC və digər texnologiyaların tətbiqi planlaşdırılır. Diqqətçəkən digər bir məqam "card-to-card" tipli ödəniş əməliyyatları ilə bağlı qanunvericilikdə müəyyən ediləcək yeni tələblər fonunda ödəniş kartları ilə aparılan rəqəmsal ödənişlərin inkişaf tendensiyasının qorunub saxlanılmasıdır.

### Elektron pul təşkilatlarının sayı 17-yə çatıb

Mərkəzi Bankın sədr müavini Vüsal Xəlilov vurğulayıb ki, son illərdə ölkəmizdə rəqəmsal ödənişlərin genişlənməsi, maliyyə xidmətlərinin daha səmərəli, çevik və əlçatan olmasına şərait yaradılıb, maliyyə texnologiyaları sektorunun dinamik inkişafı təmin edilib. Ölkədə 17 elektron pul təşkilatı, 9 ödəniş təşkilatı və 2 ödəniş sistemi operatoru fəaliyyət göstərir, onların ümumi əməliyyat həcmi cari ilin ilk 10 ayı üzrə 53,1 milyard manat təşkil edib. Hazırda 19 kommersiya bankı və milli poçt-rabitə operatoru ödəniş hesabına xidmət edən ödəniş xidməti təchizatçısı, 4 bank isə hesab üzrə məlumat xidməti təchizatçısı kimi ekosistemə qoşulub. Mərkəzi Bank "Açıq Maliyyə" çərçivəsində Open API standartları, məlumat təhlükəsizliyi və müştəri razılığı modellərinin formalaşdırılması üzərində çalışır. Bu proses maliyyə xidmətlərinin fərdiləşdirilməsi, rəqabətliliyin artırılması və məlumat axınlarının səmərəli idarə olunmasına xidmət edir. Mərkəzi Bank tərəfindən yaradılmış Xüsusi Tənzimləmə Rejimi çərçivəsində fəaliyyət göstərən layihələrin real mühitdə sınaqdan keçirilməsi, onların texniki və əməliyyat dayanıqlılığının qiymətləndirilməsi məqsədilə aparılan işlər davam etdirilir. Bu rejimə əsasən, "Pre-Sandbox" modelinin hazırlanması istiqamətində də işlər aparılır.

### Bankların 70 faizi köçürmələrini Ani Ödənişlər Sisteminə inteqrasiya edib

V.Xəlilov bildirib ki, Ani Ödənişlər Sistemi (AÖS) üzrə əməliyyat həcmlərinin əhəmiyyətli dərəcədə artması qarşıya qoyulan strateji hədəflərə doğru inamla irəlilədiyimizi göstərir. Hazırda sistemin funksional imkanlarının genişləndirilməsi istiqamətində işlər davam etdirilir. Son aylarda diqqət yalnız C2C ödənişlərinin AÖS-ə keçidinə deyil, eyni zamanda, B2B ödənişlərinin AÖS-ə keçidinə və C2B ödənişlərinin "AZ-QR" vasitəsilə genişlənməsinə yönəldilib. Əlavə olaraq, HÖP ödənişlərinin də mərhələli şəkildə AÖS-ə keçirilməsi üzərində iş aparılır. Bunun nəticəsidir ki, həm ani ödənişlərin həcmi, həm də xidmətlərin əhatə dairəsi əhəmiyyətli şəkildə artıb. AÖS əməliyyatlarının sayı 25 dəfə artaraq aylıq 1,8 milyona çatıb. "AZ-QR" kodu emitent və ekvayer tərəfdə tətbiq edən bankların sayı artır. Bankların 70 faizi C2C köçürmələrini AÖS ilə inteqrasiya edib. Qoşulmuş banklar mərhələli şəkildə trafiki artırmaqda davam edirlər. İnternet bankçılıq üzərindən emal olunan AÖS ödənişlərinin aylıq dövriyyəsi 4 dəfə artaraq 100 milyon manata, əməliyyatlarının sayı 25 dəfə artaraq aylıq 1,8 milyona çatıb.

"AZ-QR" kodu emitent və ekvayer tərəfdə tətbiq edən bankların sayı artır. Bankların 70 faizi C2C köçürmələrini AÖS ilə inteqrasiya edib. Sistemə qoşulmuş banklar mərhələli şəkildə trafiki artırmaqda davam edirlər. İnternet bankçılıq üzərindən emal olunan AÖS ödənişlərinin aylıq dövriyyəsi 4 dəfə artaraq 100 milyon manata çatıb.

Ümumilikdə, Bank Forumunda müzakirə edilən məsələlər müəyyən edilmiş məqsədlərə çatmağa, bank sektorunun rəqəmsal ekosisteminin inkişafı üçün xarici tərəfdaşlarla əməkdaşlığın gücləndirilməsinə, keyfiyyət tələbləri və risk əsaslı nəzarət mexanizmlərinin gücləndirilməsinə, dayanıqlı maliyyə ekosisteminin möhkəmlənməsinin təmin edilməsinə töhfə verəcək.

*E.CƏFƏRLİ*

# Ümidlər Türkiyəyə yönəlir...

Bu günlərdə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla Ukrayna lideri Volodimir Zelenski arasında növbəti görüş baş tutub. Xarici işlər naziri Hakan Fidanın, Milli Kəşfiyyat Təşkilatının direktoru İbrahim Kalın, prezidentin xarici siyasət və təhlükəsizlik məsələləri üzrə baş müşaviri Akif Çağatay Kılıçın da iştirak etdiyi görüşdə ikitərəfli münasibətlərlə bağlı bir sıra məsələlər müzakirə olunub. Müzakirələrin mərkəzində isə uzanan Rusiya-Ukrayna müharibəsi dayanıb.

## Ankarada Ərdoğan - Zelenski görüşündə nələr müzakirə edilib?

### İstanbul platforması ən uğurlu formatdır

Hazırda Rusiya-Ukrayna müharibəsi kritik mərhələyə daxil olub. Vəziyyəti mürəkkəbləşdirən hər iki tərəfin maksimalist mövqedən çıxış etməsidir. Rusiya irəlilədiyi Ukrayna əraziləri və daha geniş coğrafiya üzərində suverenliyinin tanınmasını sülh danışıqlarının əsas şərti kimi irəli sürür. Kiyev isə bununla razılaşmayaraq qarşı tərəfə bir qarış ərazisini də verməyəcəyini bildirir. Müharibənin indiki mərhələsində Zelenski daha çox atəşkəs təklifləndən çıxış edir. Lakin bu təklif Moskva tərəfindən yaxına buraxılmır. Rusiyanın siyasiləri bunu hazırda məğlub durumda olan Ukraynanın vaxt qazanmaq niyyəti kimi dəyərləndirirlər. Onların qənaətinə görə, aktiv müharibə fazasının dayanmasından istifadə edən Ukrayna toparlanacaq, havadarlarının dəstəyi ilə güc toplayacaq və sonradan itirdiyi torpaqlar uğrunda yeni müharibəyə başlayacaq. Moskvada düşünürlər ki, razılaşma ancaq yekun sülh müqaviləsi ilə bağlı ola bilər, əks halda müharibə davam edəcək.

Yaranmış vəziyyət kollektiv Qərbin Ukraynanı tələb olunan həcmdə yardımla təchiz etməməsi, müəyyən məsələlərdə tərəddüdlərə yol verilməsi və ümumi razılıq əldə olunmaması fonunda Ukrayna üçün daha kritik görünür. V.Zelenskinin Türkiyə Prezidenti ilə müzakirələr aparmağa ehtiyac duyması da məhz bununla bağlıdır. Digər platformalarda aparılan danışıqlar nəticəyönümlü olmadığına görə Zelenski ümidlərini Türkiyə platformasına bağlayıb ki, bu da səbəbsiz deyil. Ukraynanın dövlət başçısını Ərdoğanla görüşə sövq edən amillər sırasında Türkiyənin qlobal miqyasda artan nüfuzunu, NATO-da faktiki olaraq ikinci güc kimi qəbul edilməsini, müharibənin sonuclanmasını istəyən ABŞ-la yaxşı münasibətlərini göstərmək mümkündür. Əsas məqamlardan biri isə Ankaranın həm Moskva, həm də Kiyevlə tərəfdaşlıq əlaqələrinə malik olmasıdır. Həmçinin Zelenski və Putin dəfələrlə R.T.Ərdoğana öz rəğbətlərini ifadə ediblər. Digər tərəfdən, Rusiya-Ukrayna müharibəsi ilə bağlı İstanbul platforması ən uğurlu nəticələrin əldə olunduğu format kimi dəyərləndirilir. Bu formatda indiyədək 3 raund müzakirələr aparılıb və xüsusilə də əsirlərin mübadiləsi sahəsində razılıqlar əldə olunub. Tarixi "Taxıl razılaşması" da İstanbul platformasının aktivindədir. Hətta buna görə bir sıra analitiklər R.T.Ərdoğanın Nobel sülh mükafatına layiq olduğunu bildirirdilər.



### Türkiyə mövqeyinə sadiqdir

Keçmiş təcrübə digər platformalarda susqunluq yaşandığı indiki mərhələdə yenə də köməyə gələ bilər. Ankara görüşündən sonra mətbuata verdiyi bəyanatında R.T.Ərdoğan ölkəsinin sülh prosesinə sadiq qaldığını növbəti dəfə təsdiqləyib. O, tərəfləri müharibəyə son qoymaq üçün mümkün addımlar atmağa çağırıb. Türkiyə lideri İstanbul danışıqları zamanı tərəflərin atəşkəs və sülh perspektivlərini birbaşa müzakirə etmək imkanına malik olduqlarını xatırladıb. Ərdoğan müharibənin dağıdıcı nəticələrinin tərəflərə getdikcə daha çox təsir göstərdiyini vurğulayaraq deyib: "Mövcud vəziyyətdə İstanbuldakı danışıqlar sülhə doğru diplomatik səylərin xüsusilə vacib bir mərhələsidir". O həmçinin enerji infrastrukturu obyektlərinə endirilən zərbələrin aradan qaldırılması çətin olan ciddi nəticələrə səbəb olduğunu qeyd edib. Türkiyə Prezidenti problemlərin miqyaslı həllinə diqqət çəkərək İstanbul prosesinin bərpasının önəmini xüsusi vurğulayıb. "Türkiyə qan tökülməsinin dayandırılmasını istəyən bütün tərəfdaşlarından İstanbul prosesinə konstruktiv yanaşma nümayiş etdirmələrini gözləyir. Biz həmçinin atəşkəsi yaxınlaşdıracaq və ədalətli, uzunmüddətli sülhə yol açacaq təşəbbüsləri Rusiya ilə müzakirə etməyə hər zaman hazırıq", - deyə o bildirib və bu prosesdə ABŞ-ın iştirakının əhəmiyyətini qeyd edib.

Ərdoğan iki ölkə arasındakı tarixi əlaqələrə toxunaraq, Ankaranın Ukraynanın ərazi bütövlüyü, suverenliyi və müstəqilliyinin tanınmasına dair mövqeyinin dəyişməz olduğunu bir daha diqqətə çatdırıb. Onun sözlərinə görə, Türkiyənin tikinti şirkətləri Ukraynanın bərpasına töhfə verməyə hazırdır.

### Ukrayna Türkiyə diplomatiyasının gücünə inanır

"Türkiyənin prinsipial mövqeyi bizim üçün çox vacibdir. Davam edən müharibəyə aydın münasibətinə və ölkəmizin müstəqilliyini və suverenliyini dəstəklədiyinə görə Türkiyə tərəfinə minnətdaram". Bu fikri isə mətbuata bəyanatında Prezident V.Zelenski ifadə edib. O, Kiyevin "Moskvada eşidilə bilən Türkiyə diplomatiyasının gücünə inandığını" xüsusi vurğulayıb. Eyni zamanda, Ukrayna Prezidenti əsir mübadiləsi prosesinin bu ilin sonuna qədər bərpa olunacağına ümid etdiyini bildirib. "Türkiyə bu məsələyə güclü dəstək verir", - deyə Zelenski vurğulayıb.

***Mübariz FEYİZLİ***

## MƏRKƏZİ ELMİ KİTABXANA - 100

# AZƏRBAYCAN ELMİNİN YADDAŞ ARXİVİ

Mənim Mərkəzi Elmi Kitabxanayla tanışlığım ötən əsrin 90-cı illərinə təsadüf edir. Həm Bakı Dövlət Universitetinin Kitabxanaçılıq-informasiya fakültəsinin tələbəsi olaraq ixtisas fənlərinin tərkib hissəsi kimi oxuduqlarımla, həm də istehsalat təcrübəsini keçirdiyim müəssisə kimi. Mərkəzi Elmi Kitabxana haqqında kitabxanaçılıq elminin banisi, professor Abuzər Xələfovun, bir vaxtlar buraya rəhbərlik etmiş dosent Rasim Kazımovun yazdıqları və danışdıqları da başqa bir tarix idi.

Əməkdaş kimi isə MEK-lə tanışlığım 2020-ci ilin yazına təsadüf edir.Və mən bu tanışlıqdan duyduğum qürurumu sözlə ifadə etməkdə çətinlik çəkirəm.

Bu il mənim doğma məkanım - Azərbaycan Milli Elmlər Akademiyası Mərkəzi Elmi Kitabxanasının 100 illiyidir. Bu 100 ildə tarixin müxtəlif dönəmlərində yaşananlar - yaradılması, təşəkkül mərhələləri, fəaliyyətinə göstərilən dövlət qayğısı və digərləri Mərkəzi Elmi Kitabxananı Azərbaycan elminin informasiya məbədinə çevirmişdir. Mən isə bu strateji və taleyüklü missiyanı həyata keçirən kitabxanamızın fəaliyyətinin bəzi məqamlarına işıq tutmağa çalışacam...

**TARİXİMİZDƏN**

Azərbaycan Milli Elmlər Akademiyası Mərkəzi Elmi Kitabxanasının əsası Azərbaycanın bir qrup ziyalısı tərəfindən 1923-cü ildə Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin Biblioqrafiya bürosunun fəaliyyətə başlaması ilə qoyulmuşdur.

19 avqust 1925-ci ildə Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin Mərkəzi Şurasının Rəyasət Heyətinin iclasında Biblioqrafiya bürosunun işi haqqında məsələyə baxılmış, cəmiyyətin kitabxanası ilə biblioqrafiya bürosunun işi birləşdirilmişdir.

1929-cu ildə Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin bazasında Azərbaycan Elmi-Tədqiqat İnstitutu yaradıldı. Cəmiyyətin kitabxanası da həmin dövrdə xeyli zənginləşmiş, maddi-texniki bazasının inkişafı üçün vəsait ayrılmış, ştat vahidi artırılmış, oxucu kontingenti artmış, kitab dövriyyəsi genişlənmişdi.

1932-ci ildə Azərbaycan Dövlət Elmi-Tədqiqat İnstitutunun əsasında SSRİ Elmlər Akademiyası Zaqafqaziya filialının Azərbaycan şöbəsi təşkil edildi ki, bu da kitabxananın fəaliyyətini xeyli genişləndirdi.

1935-ci ildə SSRİ EA Rəyasət Heyəti akademiyanın Azərbaycan filialının yaradılması haqqında qərar qəbul etdi. 1935-ci ildən başlayaraq filialın mərkəzi kitabxanası ilə yanaşı, onun ayrı-ayrı institutları və bölmələri yanında 18 sahəvi elmi kitabxana da yaradılmışdı. Həmin dövrdə kitabxananın fondu 180 min nüsxəyə çatmış, beynəlxalq kitab mübadiləsi genişlənmişdi.

1945-ci ildə Azərbaycanda müstəqil Elmlər Akademiyasının yaradılması ilə əlaqədar kitabxananın tarixində yeni inkişaf mərhələsi başlandı.

1951-ci ildə Azərbaycan Elmlər Akademiyası Rəyasət Heyətinin qərarı ilə Elmi-Tədqiqat institutlarının kitabxana şəbəkəsinin fəaliyyətini əlaqələndirmək və onlara rəhbərlik etmək məqsədilə Kitabxana Şurası yaradılmış, dövrün görkəmli alimləri şuranın işinə cəlb olunmuşlar.

1963-cü ildə kitabxana Azərbaycan Elmlər Akademiyası Rəyasət Heyətinin müvafiq qərarı ilə Azərbaycan Elmlər Akademiyasının Əsaslı Kitabxanasına çevrilmişdir.

1964-cü ildən Azərbaycan Elmlər Akademiyası Rəyasət Heyətinin qərarına əsasən kitabxanada "Azərbaycanın elm və mədəniyyət xadimləri" seriyası ilə Azərbaycan alimlərinin elmi nailiyyətlərini, onların həyat və yaradıcılığını əks etdirən şəxsi biblioqrafik göstəricilər çap edilmiş və bu iş bu gün də uğurla davam etdirilir.

1967-ci ildə kitabxana Akademiya şəhərciyinə köçürülmüş, "Nizamnaməsi", strukturu, elmi-metodiki şurası təsdiq edilmiş, oxuculara xidmət işində dövrün mütərəqqi üsulları tətbiq edilməyə başlanılmışdır.

Həmin illərdə kitabxananın fondu hədiyyələr və şəxsi kolleksiyalar hesabına da xeyli zənginləşmişdi. Hazırda Mərkəzi Elmi Kitabxananın fondlarında müxtəlif elm sahələrinin görkəmli nümayəndələrinin 43 adda şəxsi kolleksiyası mövcuddur. Bundan başqa, Akademiklər zalında mövcud olan Diplomatik guşəmizdə 26 ölkənin 33 adda kolleksiyası da qorunmaqdadır.

1972-ci ildə Mərkəzləşmiş Kitabxana Sisteminə çevrilən kitabxana 1978-ci ildən respublika miqyasında təbiət və dəqiq elmlər üzrə əsas depozitar kitabsaxlayıcı kimi fəaliyyət göstərməkdədir.

1984-cü ildən Əsaslı Kitabxana Mərkəzi Elmi Kitabxana adlanır və respublikamızda nəşr edilən çap məhsullarının pulsuz məcburi nüsxələrini alır.

**MEK-İN FƏALİYYƏTİNƏ DÖVLƏT QAYĞISI**

Mərkəzi Elmi Kitabxana hər zaman fəaliyyətində dövlət qayğısı ilə əhatə olunmuşdur.

1993-cü ildə Ümummilli Lider Heydər Əliyev ikinci dəfə hakimiyyətə qayıtdıqdan sonra ölkədə kitabxana işinə olan diqqət və qayğı Mərkəzi Elmi Kitabxananın da işinə müsbət təsir göstərdi, kitabxana pozulmuş əlaqələrini bərpa etdi, yeni-yeni layihələrin iştirakçısına çevrildi, fondlarını zənginləşdirməkdə davam etdi.

Ümummilli Lider Heydər Əliyevin 2001-ci il 15 may tarixli fərmanı ilə Azərbaycan Elmlər Akademiyası milli status qazandı. Bu proseslər Mərkəzi Elmi Kitabxananın fəaliyyətinə də öz müsbət təsirini göstərdi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin də Azərbaycan Milli Elmlər Akademiyasının fəaliyyətinə, bu xüsusda Mərkəzi Elmi Kitabxanaya xüsusi diqqət və qayğısı olmuşdur. Belə ki, kitabxananın müstəqil bina ilə təmin edilməsini, oxuculara həftə ərzində fasiləsiz və iki növbəli xidmət göstərilməsi üçün şərait yaradılmasını kitabxana-informasiya təminatında keyfiyyətcə yeni tarixi mərhələ hesab edən kitabxana işinin qabaqcıl mütəxəssisləri və akademiya rəhbərliyinin müraciəti əsasında Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanasına müasir tipli yeni binasının tikilməsi üçün Prezident İlham Əliyev 29 aprel 2011-ci il tarixli sərəncam imzalamışdır. Həmin ilin noyabrında dövlətimizin başçısı kitabxananın yeni binasının təməlini qoymuş, tikinti üçün ilkin olaraq Prezidentin Ehtiyat Fondundan 2 (iki) milyon manat vəsait ayrılmışdır. İnşaat işlərinin başa çatdırılması üçün 2011-2013-cü illərdə Nazirlər Kabinetinin müvafiq sərəncamları əsasında ümumilikdə 34 milyon manatdan çox vəsait xərclənmişdir.

Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanası üçün tikilmiş yeni binanın ümumi sahəsi 28 min kvadratmetrdən çoxdur. Burada beynəlxalq standartlara uyğun səmərəli fəaliyyət üçün hər cür şərait yaradılmışdır. Binada mövcud olan 14 oxu zalında eyni vaxtda 1000-dən çox oxucuya elektron və ənənəvi xidmət göstərmək mümkündür.

Kitabxana binasında 4 milyona yaxın sənədin saxlanmasına imkan verən qapalı və xüsusi şəraitli fondlar vardır.

**FONDLARIMIZ**

Kitabxana fondları cəmiyyətin mədəni və elmi yaddaşının qorunub saxlanmasında mühüm vasitədir. Fondların zənginliyi və müxtəlifliyi kitabxananın elmi-tədqiqat və təhsil fəaliyyətində nə dərəcədə əhəmiyyətli rol oynadığının göstəricisidir. Mərkəzi Elmi Kitabxananın da digər kitabxanalar kimi çoxsaylı fondları var: Azərbaycan dilində ədəbiyyat fondu; Xarici dillərdə ədəbiyyat fondu; Nadir kitablar fondu; Heydər Əliyev və Azərbaycan dövlətçiliyi fondu; Qarabağ müharibəsi qəhrəmanları fondu; İxtisas ədəbiyyatı fondu; Mübadilə fondu. Bu fondların hər birində toplanmış ədəbiyyatlar oxucu məmnunluğuna xidmət göstərməklə yanaşı, həm də biliklərin nəsildən-nəslə ötürülməsi üçün dayanıqlı platformadır.

Azərbaycan, rus,türk, fars, ərəb, ingilis, alman, fransız və digər dillərdə olan fondların xronoloji əhatəsi XVI-XXI əsrləri əhatə edir.

Hazırda Mərkəzi Elmi Kitabxana 50-dən artıq dildə dünya ədəbiyyatı, tarixi, elmi və incəsənətini özündə əks etdirən 1,5 milyona yaxın sənədin qorunub saxlandığı, 10 mindən artıq istifadəçiyə eyni zamanda xidmət göstərən elmi mərkəzdir.

Ölkə kitabxanaları içərisində ən qədim kitab da bizim kitabxanamızda qorunmaqdadır. Kitab 1502-ci ilə aid "Müxtəlif şəhifələrdən və müəllifin məcmuələrindən ibarət heptologiya" monoqrafiyasıdır.

**ELMİ FƏALİYYƏTİMİZ**

4 yanvar 2003-cü ildə Ulu Öndər Heydər Əliyevin fərmanı ilə Azərbaycan Milli Elmlər Akademiyasının Nizamnaməsi təsdiq edildi. Elə həmin il kitabxananın nəzdində aspirantura şöbəsinin yaradılması və burada kitabxanaşünaslıq, biblioqrafiyaşünaslıq və kitabşünaslıq ixtisası üzrə kadr hazırlığına başlanması bu istiqamətdə atılmış strateji addımlardan biri olmuşdur.

Kitabxanada elmi müəssisə kimi elmi nəşrlər də çap olunub. Bu nəşrlərin ilki 1979-cu ildə Azərbaycan SSR Elmlər Akademiya Əsaslı Kitabxanasının "Kitabxana-biblioqrafiya və məlumat məsələləri" adlı məqalələr məcmuəsidir. Nəşrin çapına Azərbaycan SSR Elmlər Akademiyası Redaksiya-nəşriyyat Şurası qərar verib. Qeyri-məlum səbəbdən bu nəşrin 2-ci sayı uzun illər sonra 1988-ci ildə işıq üzü görüb. Nəhayət, nəşrin 3-cü nömrəsi 2000-ci ildə "Elmi əsərlər" adı ilə 2013-cü ilədək ildə bir və ya iki sayda oxucuların görüşünə gəlib.

AMEA Rəyasət Heyətinin 13 mart 2023-cü il tarixli 10/5 saylı qərarı ilə Mərkəzi Elmi Kitabxanada yenidən Elmi-Metodiki Şura yaradılmış, 11 iyun 2024-cü il 16/6 saylı qərarla şuranın tərkibində dəyişiklik edilmiş, təkmilləşdirilmiş, "Mərkəzi Elmi Kitabxananın İnformasiya Bülleteni" nəşr olunmağa başlanmışdır.

Mərkəzi Elmi Kitabxanada Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin qərarlarına əsasən şəxsi, kitabxana əməkdaşlarının təklifləri əsasında isə mövzu biblioqrafik göstəriciləri hazırlanır. Bu biblioqrafik göstəricilər öz elmi tutumu və fundamentallığı ilə Mərkəzi Elmi Kitabxananın təkcə informasiya təminatı mərkəzi deyil, həm də elmi-tədqiqat və metodoloji baza kimi fəaliyyət göstərdiyini təsdiq edir.

**BEYNƏLXALQ ƏLAQƏLƏRİMİZ**

Mərkəzi Elmi Kitabxananın beynəlxalq əlaqələri elm və informasiya mübadiləsinin qloballaşdığı müasir dövrdə onun elmi nüfuzunun artmasına, beynəlxalq kitabxana və informasiya cəmiyyətinə inteqrasiyasına, habelə qlobal miqyasda biliklərə çıxış imkanlarının genişlənməsinə xidmət edən mühüm strateji istiqamətlərdən birini təşkil edir. Hazırda Mərkəzi Elmi Kitabxana dünyanın 46 ölkəsinin 130-a yaxın təşkilatı, o cümlədən ölkəmizdəki bir sıra səfirliklərlə, Azərbaycanın xaricdəki səfirlikləri ilə əlaqələr qurub, əməkdaşlıqlar edir.

**PRİORİTETLƏRİMİZ**

Bu gün Mərkəzi Elmi Kitabxananın yeniləşən fəaliyyətinin ana xəttini dünyada baş verən kitabxana-informasiya prosesləri kontekstində oxuculara xidmət sisteminin müasir modelinin hazırlanıb həyata keçirilməsi təşkil edir. Burada oxuculara xidmət işi elmi proseslərin informasiya təminatının dinamikliyi nəzərə alınmaqla keyfiyyət və təşkilati baxımdan yeni mütərəqqi iş üsulları ilə zənginləşdirilir. Bütün bu istiqamətlər Mərkəzi Elmi Kitabxananın qarşısına qoyduğu strateji məqsədlərə xidmət edir. Gələcəyə baxışımız aydındır: müasir informasiya cəmiyyətinin tələblərinə cavab verən, elm və təhsilin inkişafına töhfə verən, oxucuların ehtiyaclarına çevik və innovativ yanaşmalar sərgiləyən bir kitabxana modeli formalaşdırmaq. Bu yolda atılan hər bir addım, yalnız bugünkü deyil, sabahkı nəsillərin də elmi axtarışlarında etibarlı dayağa çevrilmək missiyasını daşıyır. Mərkəzi Elmi Kitabxananın ötən 100 ildəki bütün tarixi inkişaf mərhələlərində olduğu kimi...



***Şəhla Tahirqızı,***
***filologiya üzrə fəlsəfə doktoru, dosent,***
***Mərkəzi Elmi Kitabxananın direktor müavini***

# Qəzzadan sonra Ukraynada...

## Tramp administrasiyası Mərkəzi Avropada sabitlik üçün sülh planı təklif edir

Yaxın və Orta Şərqlə bağlı sülh planının reallaşmasının ardından ABŞ diqqəti Mərkəzi Avropaya yönəldib. "Politico" xəbər verir ki, Rusiya - Ukrayna müharibəsinə son qoymaq üçün Vaşinqtonun sülh planı noyabr ayının sonuna, hətta "bu həftə" bütün tərəflər tərəfindən razılaşdırıla bilər. Nəşr Tramp administrasiyasının yüksək vəzifəli məmuruna istinadən bildirib ki, bütün tərəflərin bu plana razılıq verəcəyi gözlənilir. Prosesin artıq bir müddətdir davam etdiyi bildirilir - nəşr ABŞ Ordu naziri Daniel Driskollun Kiyevə gözlənilməz səfərini önə çəkib. Qeyd edək ki, Driskoll noyabrın 19-da Kiyevə səfər edib. Onun daha sonra Rusiya rəsmiləri ilə görüşəcəyi bildirilir.

Bu arada, "Axios" ABŞ-ın sülh planının 28 maddədən ibarət olacağını iddia edib. Bildirilib ki, Rusiya Prezidentinin elçisi Kirill Dmitriyev oktyabrın sonlarında bu planı müzakirə etmək üçün Mayamiyə səfər edib. Tramp administrasiyasının rəsmiləri "Politico"ya böyük bir irəliləyişin astanasında olduqlarını bildiriblər. Maraqlı burasındadır ki, nəşr Ukraynanın və Avropa müttəfiqlərinin sənədin hazırlanmasında birbaşa iştirak etmədiyini yazıb.

### Ukrayna sülh planından imtina edir...

NBC-nin yüksək vəzifəli ABŞ rəsmisinə istinadən verdiyi məlumata görə, razılaşma ABŞ prezidentinin xüsusi elçisi Stiv Vitkoff, vitse-prezident C.D. Vens, dövlət katibi Marko Rubio və Cared Kuşner tərəfindən hazırlanıb. Onlar Rusiya prezidentinin xarici ölkələrlə investisiya və iqtisadi əməkdaşlıq üzrə xüsusi nümayəndəsi Kirill Dmitriyevlə məsləhətləşiblər. Məlum olub ki, Vitkoff və Ukrayna Milli Təhlükəsizlik və Müdafiə Şurasının (NSDC) katibi Rüstəm Umerov arasında nizamlanma planı ilə bağlı danışıqlar zamanı ilkin mərhələdə "müəyyən anlaşma" əldə edilib. Amma sonradan bundan imtina olunub. "The Financial Times" Ukraynanın mövqeyini belə izah edib - plan demək olar ki, tamamilə Kremlin "maksimalist tələblərinə" cavab verir. "The Daily Telegraph" qəzeti isə Tramp administrasiyasının Avropa liderləri ilə məsləhətləşməməsinə diqqət çəkib - nəşrin qənaətinə görə, bu, Avropanı sülh planı barədə xəbərsiz qoymaqdır. Britaniya mətbuatının məlumatına görə, siyasətçini sülhü qəbul etməyə inandırmaq cəhdləri isə son günlərdə Ukrayna ilə bağlı yayılan korrupsiya qalmaqalı ilə bağlıdır.

"The Wall Street Journal" da mənbələrə istinadən Ukraynadakı münaqişənin həlli ilə bağlı yeni sülh planının əsasən Rusiya lideri Vladimir Putinin Alyaskada keçirilən görüşdə səsləndirdiyi təkliflər ilə uyğun gəldiyini bildirib. Nəşrin məlumatına görə, Ağ Evin yeni planının elementləri Putinin avqust ayında Trampın xüsusi elçi Stiv Vitkoffla görüşlərində və daha sonra Alyaskada aparılan müzakirənin elementləri ilə səsləşir.

### 28 bəndlik plana görə...

"Axios" təklif olunan planın detalları barədə xəbər dərc edib. Nəşrin məlumatına görə, plan bütün Donetsk bölgəsinin Rusiyaya təslim edilməsini, ABŞ-ın Krım və Donbası Rusiya əraziləri kimi tanımasını, Zaporojye və Xerson bölgələrində cəbhə xəttinin dondurulmasını nəzərdə tutur. Nəşrin məlumatına görə, Tramp administrasiyası Donbas ərazisinin - yəni Ukraynanın könüllü olaraq geri çəkiləcəyi Donetsk və Luqansk bölgələrinin - Rusiyanın nəzarətinə verilməsini, eyni zamanda silahsızlaşdırılmış zonaya çevrilməsini təklif edir.

"Axios"un məlumatına görə, ABŞ özü və Avropa müttəfiqləri üçün Krım və Donbası rəsmi olaraq Rusiya əraziləri kimi tanımağa söz verir, lakin Ukraynanı buna məcbur etməyəcək.

Sənəddə həmçinin Ukrayna Silahlı Qüvvələrinin sayının 50 faiz azaldılması, respublikada xarici qoşunların yerləşdirilməsinə qadağa qoyulması, Moskva və Sankt-Peterburqdan Kiyevə çata bilən uzun mənzilli silahların tədarükünə məhdudiyyətlər nəzərdə tutulur. Başqa bir bənddə Ukraynanın "ən azı bir neçə il" NATO-ya qoşulmaqdan imtina etməsi də qeyd edilir.

Bütün bu güzəştlər müqabilində ABŞ Ukraynaya və Avropaya təhlükəsizlik zəmanətləri təklif edir - lakin bu zəmanətlərin mahiyyəti dəqiq bəlli deyil.

### Rusiya razıdır...

Vladimir Putinin xüsusi nümayəndəsi Kirill Dmitriyev "Axios"a verdiyi müsahibədə plana nikbin baxdığını bildirib - onun sözlərinə görə, "Rusiyanın mövqeyi ilk dəfə eşidilib". O, əlavə edib ki, plan Rusiya və ABŞ prezidentlərinin avqust ayında Alyaskada müzakirə etdikləri prinsiplərə əsaslanır. "Bu, əslində, daha geniş çərçivə müqaviləsidir və mahiyyət etibarilə təkcə Ukraynada deyil, Avropada uzunmüddətli təhlükəsizliyə necə nail ola biləcəyimizi göstərir", - deyə Dmitriyev bildirib. O əlavə edib ki, amerikalılar bu planın "üstünlüklərini" həm avropalılara, həm də ukraynalılara izah etməyə çalışırlar.



### Hər iki tərəfdən güzəşt tələb olunur...

ABŞ isə məsələdə qətiyyətli görünür. Belə ki, ABŞ-ın dövlət katibi Antoni Rubio sosial şəbəkə X-da Ukraynada davam edən müharibənin dayandırılması üçün həm Kiyevin, həm də Moskvanın çətin və ağrılı güzəştlərə razı olmalı olacağını bildirib. Rubio qeyd edib ki, uzun sürən və ölümcül müharibələrin yekunlaşdırılması üçün hərtərəfli, real və ciddi ideyaların mübadiləsi zəruridir: "Ukraynada gedən mürəkkəb və dağıdıcı müharibənin bitməsi hər iki tərəfdən ciddi, real və çətin kompromislər tələb edəcək. Biz münaqişənin hər iki tərəfində səsləndirilən təkliflərə əsaslanaraq, müharibənin dayandırılması üçün mümkün ideyalar siyahısını hazırlayırıq və hazırlamağa davam edəcəyik".

### Avropa iştirakçı olmaq istəyir...

Avropa isə prosesə müşahidəçi qalmaq niyyətində deyil. belə ki, Avropa İttifaqının Xarici işlər və təhlükəsizlik siyasəti üzrə Ali Nümayəndəsi Kaya Kallas jurnalistlərə açıqlamasında bildirib ki, Ukrayna üzrə istənilən sülh planında Avropa da iştirak etməlidir. "Biz Ukraynada davamlı sülhü dəstəkləyirik. Amma istənilən sülh planının nəticə verməsi üçün Ukrayna və Avropa bu planın tərkibində olmalıdır", - Kallas vurğulayıb.

***SADİQ***

# Avropa "hərbi Şengen"in bir addımlığında...

Avropa Komissiyası "hərbi Şengen" zonası yaratmaq planı hazırlayır. Plan təşkilata daxil olan dövlətlərin qoşunlarının sürətli hərəkəti üçün infrastrukturu özündə ehtiva edir. AK bununla bağlı hərbi mobillik üçün "yol xəritəsi" təqdim edib. Siyasi analitiklər bu addımı Aİ ölkələrinin infrastrukturunu və logistikasını şərq sərhədlərində potensial hərbi münaqişəyə hazırlamaqla əlaqələndirirlər.

Noyabrın 19-da təqdim olunan hərbi mobillik üçün "yol xəritəsi" ("Hərbi Mobillik Paketi") 115 səhifədən ibarətdir. Sənəd Aİ daxilində hərbi yüklərin və qoşunların hərəkətini sadələşdirməyi, eləcə də logistikadakı infrastruktur və bürokratik maneələrin aradan qaldırılmasını nəzərdə tutur. Sənəddə izah olunur ki, "Hərbi mobillik Avropanın rəqibləri effektiv şəkildə çəkindirməsi və istənilən böhrana cavab verməsi üçün ehtiyac duyduğu müdafiə strategiyasında və imkanlarında vacib amildir".

## Qitə özünün müdafiə qabiliyyətini artırmaq üçün hərəkətə keçir

### 2026-cı ilə kimi təkliflər hazırlanmalıdır...

Plan üzv dövlətlərə və ya Avropa Komissiyasına fövqəladə hallar zamanı malların və insanların daşınması üçün normal qaydaların müvəqqəti dayandırılmasına imkan verəcək yeni Avropa Təkmilləşdirilmiş Hərbi Mobillik Reaksiya Sisteminə (European Military Mobility Enhanced Response System - EMERS) əsaslanır. EMERS işə salındıqdan sonra infrastrukturdan istifadə və nəqliyyatla bağlı orduya mühüm üstünlüklər tanınacaq. Layihənin təqdimatı zamanı Avropa Komissiyasının vitse-prezidenti və komissarı Henna Virkkunen bildirib ki, bu, faktiki olaraq "hərbi Şengen"in yaradılması deməkdir.

Vurğulandığı kimi, əsas məqsəd qoşunların, avadanlıqların və dəstək heyətinin Avropada avtomobil, dəmir yolu, hava və dəniz yolu ilə sürətli və maneəsiz hərəkətini təmin etməkdir. Sənədə görə, 2026-cı ilin birinci yarısına qədər Aİ ölkələri müvafiq nəqliyyat dəhlizlərinin təşkili, eləcə də hərbi məqsədlər üçün istifadə edilə bilən 500 vacib infrastruktur obyektinin modernləşdirilməsi üçün konkret təkliflər hazırlamalıdırlar.

### 45 gündən 5 günə...

"Le Monde" yazır ki, Aİ uzun müddət hərbi mobilliyə investisiya qoyuluşuna diqqət ayırmayıb. "Soyuq müharibə"nin bitməsindən sonra Avropa dövlətləri əsasən zirehli maşınlar, freqatlar və qırıcı təyyarələrin alınmasına diqqət yetiriblər - regional logistika və hərbi infrastruktur isə ikinci dərəcəli hesab olunub. Nəticədə, blokdakı əsas logistika mərkəzləri hazırda hərbi ehtiyaclar üçün yararsızdır. Aİ ölkələrində bununla bağlı müəyyən inzibati qaydalar və məhdudiyyətlər mövcuddur. Bunun göstəricisi, NATO-nun şərq cinahını gücləndirmək üçün 2022-ci ildə Rumıniyaya göndərilən Fransanın "Leclerc" tankları ilə bağlı hadisədir. Onların çatdırılması Almaniyanın nəqliyyat qaydalarına görə yol qatarlarının maksimum çəkisini məhdudlaşdırdığı üçün həftələrlə çəkib.

Siyasi mütəxəssislər bildirirlər ki, bu mobilizasiya əsasən Rusiya təhdidinə qarşı Avropanın növbəti hazırlığıdır. Hədəf olaraq da məhz bu gizlədilmir - bildirilir ik, hazırda qoşunların əsas Qərb limanlarından Ukrayna və ya Rusiya ilə həmsərhəd ölkələrə köçürülməsi təxminən 45 gün çəkir. Fransa Əməliyyat Dəstəyi və Logistika Mərkəzinin komandiri, general Fabrice Feola oktyabr ayında həftəlik "Defense News"a verdiyi müsahibəsində bildirib ki, proses on çox uzundur, xüsusən də Rusiyanın güc nümayişi halında Baltikyanı dövlətlərə sürətli reaksiya və dəstək ehtiyacı yaransa, bu, reallaşmaya bilər. Blokun məqsədi köçürmə müddətini beş günə endirməkdir.

Avropa İttifaqının Xarici işlər və təhlükəsizlik siyasəti üzrə Ali Nümayəndəsi Kaya Kallas yol xəritəsinin təqdimatında deyib ki, qoşunlar nə qədər tez yerləşsə, çəkindirmə və müdafiə bir o qədər güclü olar: "Avropaya qüvvələrin yerləşdirilməsi üçün həftələr deyil, günlər haqqında danışmalıyıq. Məsələn, bəzi ölkələr hələ də təlimlər üçün digər ölkələrdən qoşunların keçməsi üçün 45 günlük bildiriş tələb edir".

### Büdcə artırılır...

Qeyd etmək lazımdır ki, Aİ təxminən 10 ildir ki, "hərbi Şengen"in yaradılmasını müzakirə edir - bu müddət ərzində onlarla layihə hazırlanıb, lakin Aİ bu layihələri yalnız 2021-ci ildə maliyyələşdirməyə başlayıb. Ukraynadakı münaqişə Aİ-ni bu sahədə səylərini sürətləndirməyə məcbur edib. Avropa müdafiə komissarı Andrius Kubiliusun açıqlamasına görə, ilkin dövrdə nəzərdə tutulan büdcə nisbətən "təvazökar" idi - təxminən 1,7 milyard avro. Çərşənbə günü təqdim edilən plana əsasən, Aİ dekabr ayında liderlərin görüşündə təsdiqlənməsi planlaşdırılan 2028-2034-cü illər üçün büdcənin bir hissəsi olaraq Avropa Birlik Fondundan (CEF) hərbi mobillik üçün əlavə 17,7 milyard avro ayırmaq niyyətindədir.

### Logistikada NATO amili...

Məsələnin NATO ilə bağlılığı da əsas amillərdən biridir. Beli ki, hərbi mobilliyi artırmaq üçün Aİ-nin NATO ilə sıx koordinasiyada çalışacağı vurğulanır. "Le Monde" qəzetinin məlumatına görə, Ukraynada hərbi əməliyyatlar başlayandan bəri amerikalılar öz bazaları ilə Avropadakı hərbi logistika şəbəkəsinin əsas nöqtələri arasında hava körpüləri qurublar. Hər həftə onlarla C-5M Super Galaxy və C-17 Globemaster təyyarələri silah, sursat, tank və zirehli texnikanı Birləşmiş Krallıq, Polşa və Almaniyaya daşıyır. Bunun bir hissəsi daha sonra avtomobil və ya dəmir yolu ilə Ukraynaya göndərilir, digərləri isə qoşunların lazımi sürətli yerləşdirilməsi üçün anbarlarda saxlanılır. Nəşr yazır ki, ümumilikdə, ABŞ Avropada 6 logistika mərkəzindən ibarət şəbəkə yaradıb ki, bu da NATO-nun şərq cinahında eskalasiya halında daha qısa cavab müddətinə imkan verir. Bu mərkəzlərin ən yenisi 2024-cü ildən bəri Ukrayna sərhədindən təxminən 400 kilometr qərbdə yerləşən Polşanın Povidz şəhərində fəaliyyət göstərir. Bu mərkəz bir həftə ərzində zirehli briqadanı tam təchiz edə bilər. Avropalıların müqayisə edilə bilən infrastrukturu yoxdur: onların Baltikyanı ölkələrdə və Rumıniyada yalnız bir neçə nöqtəsi var.



### Avropa üçün müharibə ssenarisi?

Plana əsasən, Aİ 2030-cu ilə qədər qitədə kollektiv müdafiə boşluqlarını aradan qaldırmaq niyyətindədir - Avropa rəsmiləri hesab edirlər ki, həmin vaxta qədər blok Rusiya ilə potensial hərbi toqquşmaya hazır olmalıdır. Maraqlıdır ki, eyni tarix Aİ-nin "Müdafiə üzrə Ağ Sənədi"ndə də qeyd olunub və orada Avropa qitəsində "yüksək intensivlikli müharibə" ssenarisi təsvir edilib - Rusiya "fundamental təhlükə" adlandırılıb.

Təsadüfi deyil ki, bu yaxınlarda Almaniyanın müdafiə naziri Boris Pistorius Rusiyanın 2028-2029-cu illərdə NATO ölkəsinə hücum edə biləcəyini bildirmişdi. Rusiya prezidenti Vladimir Putin isə dəfələrlə Moskvanın NATO-ya hücum etmək niyyətində olmadığını deyib və Qərb ölkələrinə hücum ehtimalı ilə bağlı məlumatları "cəfəngiyat" adlandırıb.

Avropalı diplomatik mənbələrə istinad edən xarici mətbuat isə yazır ki, Aİ-nin müdafiə layihələrini inkişaf etdirməsi Rusiyaya qarşı "aqressiv münasibət"i göstərmir. Qeyd edək ki, bu ilin mart ayında Avropa Komissiyası Avropanın silahlandırılması üçün 800 milyard avroluq ReArm Europe planını təqdim edib. Bu plan müdafiə xərclərini ÜDM-in 1,5 faizi qədər artırmaq üçün Aİ-nin maliyyə qaydalarının yumşaldılmasını və silah istehsalına 650 milyard avro investisiya qoyulmasını nəzərdə tutur. Bu planın bir hissəsi olaraq, Aİ birgə müdafiə tədarükünü artırmaq üçün 150 milyard avroluq SAFE (Avropa üçün Təhlükəsizlik Fəaliyyəti) kredit mexanizminə razılıq verib. Bu vəsaitlərin hava hücumundan müdafiə sistemləri, raketlər, artilleriya və dronların alınmasına sərf olunacağı və Ukraynanın döyüş hazırlığının gücləndirilməsində istifadə ediləcəyi gözlənilir.

***P.İSMAYILOV***

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Bakmətbuat” MMC - 0124314313
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**






# Mavi ekranın cazibəsi...

# Ümumdünya Televiziya Günüdür

**Dünyada geniş və sürətlə yayılan televiziya kanalları tamaşaçıları öz cazibəsində saxlamaqdadır. Milyonlarla insan hər gün televiziyanın köməyi ilə dünyanın müxtəlif yerlərində baş vermiş mühüm hadisələrdən, yeniliklərdən xəbər tutur. Televiziyanın ixtirasından uzun illər keçsə də, “sehrli qutu” öz sirrini saxlayır, mavi ekranın cazibəsi davam edir. Artıq 29 ildir ki, noyabrın 21-i Ümumdünya Televiziya Günü kimi qeyd olunur. Belə ki, 1996-cı ildə Birləşmiş Millətlər Təşkilatı üzv ölkələri Beynəlxalq Televiziya Gününü qeyd etməyə çağırıb. Bunun üçün Birinci Dünya Televiziya Forumunun keçirilmə tarixi noyabrın 21-i seçilib. BMT-nin illik təşəbbüsü çərçivəsində, bu gün dünyanın hər yerindən televiziya stansiyaları birləşərək insanların həyatında televiziyanın gücünü xatırlatmaq üçün 30 saniyəlik videoçarx nümayiş etdirirlər. Dünyada ilk televiziya verilişi 1936-cı ildə Londonda olub. Nəsillərin yaddaşında həkk olunmuş, insanların özlərinə və dünyaya baxışlarına güclü təsir göstərən maraqlı televiziya verilişlərinin adını qeyd etmək yerinə düşər.**



## İnsanın Aya enməsi...

ABŞ kosmik modulunun Aya enməsi, Ayın üzərində insanın atdığı ilk addımları, astronavtlar Nil Armstronq və Edvin Bazz Oldrinin yeriməsini canlı yayımda 600 milyon adam izləyib.

Bu, qlobal televiziya verilişləri yayımında dünya rekordu idi. O zaman ilk dəfə aydın oldu ki, televiziya siqnalı təkcə işıq sürətilə məlumat yayan yox, eləcə də fərqli mədəniyyətə aid insanları da birləşdirə bilən, eyni hissləri onlarda doğura bilən bir vasitədir.

Ağ-qara televiziya təsvirinin keyfiyyəti aşağı olsa da, o dövrdə bu, ən qabaqcıl texnoloji nailiyyət sayılırdı. ABŞ-da Ay proqramına start veriləndən bəri NASA Apollo kosmik gəmisinin tikintisilə yanaşı, Aydan Yerə televiziya siqnalı göndərə bilən xüsusi antenna da yaradırdı.

## “Live Aid” xeyriyyə konserti

Bu, tarixdə ilk dəfə telemarafon formatında keçirilmiş xeyriyyə konserti idi. Həmin telemarafona dünya əhalisinin 40 faizi yəni təxminən 2 milyard insan baxmışdı.

Telemarafonun keçirilməsi ideyasını musiqiçi və fəal Bob Geldof irəli sürmüşdü: rok ulduzlarının görünməmiş populyarlığını televiziyanın texniki imkanları ilə birləşdirib bundan pul çıxarmaq. Konsertdən əldə edilən qazanc Afrikada yoxsul əhalinin vəziyyətinin yüngülləşdirilməsinə yönəldilmişdi.

Aksiya eyni zamanda iki arenada keçirilmişdi - Londonun “Wembley” stadionunda və Filadelfiyada “Kennedy” stadionunda. O zaman BBC öz verilişlərini təxirə salaraq 16 saat ərzində həmin marafon konsertini canlı yayımda translyasiya edib.

## Donahue və Poznerin ABŞ-SSRİ telekörpüləri

1980-ci illərdə sovet tamaşaçının amerikalılar barədə təsəvvürlərini radikal dərəcədə dəyişən telekörpü verilişləri oldu. Telekörpülər hələ 1982-ci ildən təşkil edilməyə başlamışdı, yəni yenidənqurmaya qədər, amma dar auditoriya üçün.

Yalnız sovet jurnalisti Vladimir Pozner və amerikalı Phil Donahue verilişin aparıcıları olandan sonra bu telekörpülər ümumxalq tamaşasına çevrildi. Ən yadda qalan sayca beşinci telekörpü oldu - Leninqrad - Boston.

1986-cı il iyunun 28-də keçirilmiş həmin telekörpünün mövzusu “Qadınlar qadınlarla danışır” idi.

## “Pole çudes”

“Pole çudes” - Sovet və Rusiya televiziyasının ən uzunömürlü proqramıdır.

Qərb televiziyasından köçürülmüş televiziya oyun formatını “ruslaşdırılaraq” ötən onillər ərzində tanınmaz dərəcədə dəyişib. Sözlərin tapılması televiktorinası bu müddət ərzində qonaqların aparıcı ilə ünsiyyət və söhbətləşmə, hədiyyələr çatdırma, tamaşaçı auditoriyasına müraciət etmə meydançasına çevrilib.

Əgər 90-cı illərin əvvəlində bu veriliş baha hədiyyə udmaq şansı verən proqram kimi populyarlıq qazanmışdısa, illər keçdikcə tamaşaçılar bu şou vasitəsilə deyib-gülmək, ünsiyyətdə olmaq, ürək sözünü çatdırmaq, kimisə təbrik etmək imkanını daha çox dəyərləndirməyə başladılar.

## “Mappet show”- kuklaların televiziyada debütü

Kuklaçı və komik Jim Henson öz kuklalarını 1970-ci illərin əvvəlində yaradıb. Əvvəlcə insanlar əvəzinə qəribə kuklaların iştirak etdiyi televiziya verilişi ideyasını ABŞ telekanalları bəyənmədi, odur ki, “Mappet show” proqramın ilk 120 verilişi yalnız Britaniyada nümayiş etdirildi.

Bu veriliş böyüklər üçün nəzərdə tutulmuşdu və musiqi, riskli zarafatlar, komediya və studiyanın qonaqları ilə müsahibələrdən ibarət idi. Verilişin aparıcısı Kermit adlı qurbağa idi. Lakin illər ötdükcə məlum oldu ki, bu qəribə personajlar tamaşaçı üçün maraqlı ola, onları sevindirə və güldürə bilər. Tədricən mappet-kuklaları digər verilişlərin, filmlərin və tamaşaların qəhramanlarına çevrildi.

“Mappet show”nun uşaqlar üçün versiyası “Sezam küçəsi” adlı televiziya verilişi yaradıldı. Bu veriliş dünyanın 140 ölkəsində nümayiş etdirildi.

## “13 stul” meyxanası...

Sosialist birliyi ölkələrinin musiqili-yumoristik proqramlarına istinad edən bu proqram sovet insanları üçün Avropaya, lap elə Şərqi Avropaya “pəncərə” açmış oldu və sosialist düşərgəsində böhran yarananda həmin verilişin ömrü bitdi.

Sovet televiziyasında ən populyar proqramlardan biri olan bu veriliş 14 il ərzində efirə çıxıb. Tamaşaçıları bu verilişdə özünə çəkən xaricilərin geyimi, rus dilində danışıq tərzi və ləhçələri idi. Bütün bunların kommunizm quruculuğu ideologiyası ilə heç bir bağlılığı yox idi.

## 68 illik tarix...

Azərbaycanda ilk televiziyanın yaranma günü 1956-cı ilə təsadüf edir. Belə ki, SSRİ-də Bakı televiziya studiyası 14 fevral 1956-cı ildə fəaliyyət göstərməyə başlayıb.

İlk veriliş günü ekranda sonradan Azərbaycanın tanınmış sənətkarına çevriləcək, o dövrdə isə gənc aktrisa olan Nəcibə Məlikova görünüb. O, çıxışını “Göstərir Bakı!” kəlməsi ilə başlayıb. Həmin gün ekranda “Bəxtiyar” bədii filmi nümayiş etdirilib.

Televiziya ekranları işıqlandığı gündən insanların həyatına, cəmiyyətə ağlasığmaz yeniliklər gətirdi. İlk növbədə kütləvi informasiya vasitələri sisteminin müstəqil bir sahəsinə çevrilən televiziya jurnalistikanın təsirini və miqyasını genişləndirdi. Adamlar qəzetdə oxuyub, radioda eşitdiklərini ekranda seyr etməklə “yüz

## Gözəllikləri və eybəcərlikləri ilə...

dəfə eşitməkdənsə, bir dəfə görmək yaxşıdır” məsəlinin doğruluğuna bir daha əmin oldular. Dünya mavi ekranda özünü gördü: bütün gözəlliyi və eybəcərlikləri ilə... Qlobal dünyanı xəbər süzgəcindən keçirən televiziyalar məhz bu eybəcərliklərin aradan qaldırılması üçün bütün gücünü səfərbər edir.

*Yeganə BAYRAMOVA*

# Sosial sahibkarlıqla dəyişən dünya

**Sosial sahibkarlar yaşadığı cəmiyyətin rifahını artırmaq, mövcud sosial və ekoloji problemlərə dayanıqlı və innovativ həllər tapmaq üçün çalışırlar. Dünyada sosial sahibkarlığa diqqəti artırmaq üçün hər il noyabr ayının 3-cü cümə axşamı günü “Sosial Sahibkarlıq Günü” kimi qeyd olunur**

## Sosial sahibkarlıq nədir?

Sosial sahibkarlıq sosial problemləri tanımaq və sahibkarlıq prinsiplərini tətbiq etməklə sosial problemi həll etmək və sosial dəyişikliyə nail olmaqdan ibarətdir. Bu müəyyən bir sosial problemi tamamilə müəyyənləşdirmək üçün araşdırma aparmaq və sonra istənilən dəyişikliyə nail olmaq üçün sosial təşəbbüsü təşkil etmək, yaratmaq və idarə etməkdir. Dəyişiklik sosial problemin hərtərəfli aradan qaldırılmasını təmin edə bilər. Və yaxud mövcud şəraitin yaxşılaşdırılmasına yönəlmiş ömür boyu davam edən bir proses ola bilər.

Ənənəvi sahibkarlıq yeni bir iş qurmaq və ya mövcud biznesi inkişaf etdirmək üçün liderlik etmək demək olsa da, sosial sahibkarlıq mənfəət və ya investisiyanın qaytarılmasından daha çox sosial kapitalın yaradılmasına diqqət yetirir. Bu sahənin işçiləri əsasən qeyri-kommersiya təşkilatları və sektorları ilə işləyirlər. Ancaq bu o demək deyil ki, ümumiyyətlə gəlir əldə etməməlidir. Çünki sosial sahibkarlığın fəaliyyətini davam etdirməsi və cəmiyyətə davamlı fayda göstərməsi üçün müəyyən bir büdcə tələbatı var.

Sosial sahibkarlıq sosial problemlərlə yanaşı, ictimai və ekoloji problemlərə də biganə qalmır. Uşaq hüquqları fondları, qadınların səlahiyyətlərinin artırılması fondları və tullantı emalı zavodları sosial təşəbbüslərə nümunə ola bilər. Sosial sahibkarlar, həmçinin ictimai tədbirlər və fəaliyyətlər vasitəsilə vəsait toplayan qeyri-kommersiya və qeyri-hökumət təşkilatları ilə əlaqəli şəxslər ola bilərlər.

## Sosial sahibkarlığın əhəmiyyəti

Dünya Sosial Sahibkarlıq Günü sosial sahibkarlıq sahəsindəki uğurları qeyd etmək və bu sahəyə marağı artırmaq məqsədini güdür. Bu günün keçirilməsi, yalnız yeni iş ideyalarının, texnologiyaların və layihələrin tanıdılmasına deyil, həm də cəmiyyətin mövcud problemlərinə qarşı davamlı həllərin tapılmasına dəstək verir. Bu tədbir həmçinin sahibkarlara və iş adamlarına sosial məsuliyyətli biznes qurmanın yollarını göstərir.

Dünya Sosial Sahibkarlıq Günü sadəcə əlamətdar gün deyil, həm də cəmiyyətin inkişafına təkan verən bir çağırışdır. Bu günün qeyd olunması sosial sahibkarlığın əhəmiyyətini daha da artırır və bu sahədəki uğurları daha geniş auditoriyaya çatdırır. Sosial sahibkarlıq həm də uzunmüddətli, davamlı həllərin axtarılmasıdır.

## Gələcəyə baxış...

Gələcəkdə sosial sahibkarlığın daha da böyüməsi və güclənməsi yalnız cəmiyyətin rifahını artırmaqla qalmaz, eyni zamanda iqtisadiyyatın dayanıqlılığını və hərtərəfli inkişafını təmin edər. Çünki sosial sahibkarlıq cəmiyyətin və dünyanın daha yaxşı bir yerə çevrilməsinin açarıdır.

*Yeganə BAYRAMOVA*

## Dünyada sosial sahibkarlıq

Dünyanın müxtəlif guşələrində sosial sahibkarlıq ideyası sürətlə böyüyür. Məsələn, Hindistan və Afrikada iqtisadiyyatın ən böyük problemlərindən biri olan yoxsulluğun aradan qaldırılması üçün sosial sahibkarlıq təşəbbüsləri genişlənir. Çində isə ətraf mühitin qorunmasına yönəlmiş sosial təşəbbüslər həm dövlət, həm də özəl sektor tərəfindən dəstəklənir.

Bundan başqa, inkişaf etmiş ölkələrdə sosial sahibkarlıq daha çox təhsil və səhiyyə sahələrində irəliləyişlərə xidmət edir. Məsələn, ABŞ-da qeyri-kommersiya təşkilatları və sosial müəssisələr, əhalinin təhsil və səhiyyə xidmətlərinə çıxışını artırmaq üçün uğurlu təşəbbüslər həyata keçirirlər.

## Azərbaycanda sosial sahibkarlıq



Ölkəmizdə sosial sahibkarlıq modeli xüsusilə təhsil, səhiyyə və ətraf mühit sahələrində özünü göstərir. Gənc sahibkarlar və sosial cəhətdən həssas qrupların həyat şəraitini yaxşılaşdırmaq üçün müxtəlif layihələr həyata keçirirlər. Həmçinin ekoloji təmiz texnologiyaların tətbiqi və sosial cəhətdən məsuliyyətli bizneslər qurmaq üçün təlimlər və seminarlar təşkil edilir.

Azərbaycanda sosial sahibkarlıq həm də gənclərin işsizlik probleminin həllində önəmli bir rol oynayır. Gənc təşəbbüskarlar bizneslərini yaradaraq, həm özlərinə, həm də cəmiyyətə fayda gətirirlər. Bu sahənin daha da inkişafı, ölkəmizdəki sosial problemlərin həllinə mühüm töhfələr verə bilər.


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
598-37-76, 498-82-21
498-81-24, 498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 4992
Sifariş: 2332
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova